www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 28-29 may 2015-ci il Cümə axşamı № 115 (6143) Qiyməti 40 qəpik

**Cümhuriyyət Bayramınız mübarək!**

## Gündəm

### 4 rayon əvəzinə Avrasiya Birliyinə üzvlük?




Azərbaycanın quruma daxil olmasının mümkünlüyü yenidən gündəmə gəlir; ekspertlərin şərhləri maraqlıdır...

yazısı səh.8-də

### "Azadlıq-2015" seçki bloku prezidentə təklif ünvanladı

yazısı səh.3-də

### "Deputat Ağalar Vəliyevin ASC-yə rəhbərlik etməsi qanun pozuntusudur"

yazısı səh.6-də

### Hüquq müdafiəçisi Taleh Xasməmmədovun məhkəməsi yarıqapalı keçirilir

yazısı səh.2-də

### Məhkəmə ilahiyyatçını ev dustaqlığına buraxmadı

yazısı səh.4-də

### Hakimiyyət Con Kerriyə inanmır

yazısı səh.3-də

### Hüquq müdafiəçiləri tutulan iş adamlarını müdafiə edəcəkmi...

yazısı səh.4-də

### Həbs olunan oliqarxlar müxalifətə keçərsə...

yazısı səh.5-də

### Müsavat 30 may mitinqində iştirak etməyəcək

yazısı səh.7-də

### Vergi borcları - hökumət artıq heç kimi bağışlamır...

yazısı səh.10-da

### 53 vətəndaş mənzil dələduzlarından prezidentə şikayət etdi

yazısı səh.11-də

### "Qızıl Xaç" əməkdaşları Dilqəm və Şahbazla görüşüblər

yazısı səh.13-də

## İqtidarda vurulma növbəsini gözləyənlərin şok "xilas planı"

# MƏMUR-OLİQARXLAR MÜXALİFƏTDƏN KÖMƏK İSTƏYİB - SENSASİYA!

Müxalifət liderləri gizlicə bir araya toplanıb nələri müzakirə ediblər?; bəzi dairələr illərdir "radikallar" və "dövlət çevrilişi" iddiasını qabartmaqla öz əhəmiyyətini az qala "gözə soxur", hakimiyyətə sadiqliklərini əks düşərgə liderlərini hədəf almaqla sübut edirdilər; indi də o vəziyyəti yaratmaq istəyirlər ki...



yazısı səh.5-də

# Daha bir nəhəng bankda şübhəli istefa

"Kapital Bank"ın rəhbərliyi dəyişdirildi; Mircamal Paşayevi Cəlal Qasımov əvəzlədi; Beynəlxalq Bankla bağlı baş verən proseslər təkrarlana bilərmi?

yazısı səh.7-də



*Zahid Oruc:*

### "İndiki situasiyada vəzifədən getmək dövlətə və millətə xidmət olar"

yazısı səh.4-də



### Hacı İbrahim Nehrəmli azadlığa buraxıldı

yazısı səh.2-də



### Deputat Fərhad Qəribovun oğlunun həbs xəbəri yayıldı

yazısı səh.2-də



# "Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcək"

## İlham Əliyev Respublika Günü münasibətilə rəsmi qəbul keçirdi

**Mayın 27-də "Buta" sarayında Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib. AzərTAc-ın xəbərinə görə prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər. Azərbaycanın dövlət himni səsləndikdən sonra İlham Əliyev rəsmi qəbulda nitq söyləyib.**

"Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü əsasında həlli üçün kifayət qədər hüququ baza var". APA-nın məlumatına görə, bunu rəsmi qəbulda çıxışı zamanı prezident İlham Əliyev deyib: "Birincisi, Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Erməni lobbisinin çirkin səylərinə baxmayaraq, biz son illər apardığımız siyasət nəticəsində Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu sübut edə bilmişik. İkincisi, Dağlıq Qarabağ bütün beynəlxalq birlik tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınır və biz BMT-yə üzv olduqda bütün dünya tərəfindən siyasi müstəvidə Dağlıq Qarabağ da Azərbaycanın tərkib hissəsi, parçası kimi qəbul edilib. Üçüncüsü, əlbəttə ki, bu gün Azərbaycanın siyasi çəkisi Ermənistanın çəkisi ilə müqayisəedilməz səviyyədədir. Dördüncüsü isə iqtisadi faktordur. Azərbaycan iqtisadiyyatı Ermənistan iqtisadiyyatından ən azı 10 dəfə böyükdür və güclüdür".

**Prezident bir daha xatırladıb ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var:** "Postsovet məkanında buna oxşar münaqişələrlə bağlı BMT Təhlükəsizlik Şurası heç bir qətnamə qəbul etməyib. Ancaq bu məsələ ilə bağlı qəbul edilib və orada da açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan qeyri-şərtsiz çıxmalıdır. Ermənistan bunu təhrif etməyə nə qədər çalışsa da, mümkün deyil, çünki bu yazılıb və dərc edilib".

Dövlət başçısı qeyd edib ki, bu münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacaq və Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcək.

# Elza Seyidcahan: "Obamanın arvadı özünü mənə oxşadır"

**Müğənni-bəstəkar Elza Seyidcahan yaradıcılığındakı yeniliklər haqqında "Yeni Müsavat"ın əməkdaşına danışıb. O, tanınmış ifaçı Ramil Qasımovla birlikdə yeni layihə üzərində çalışdığını deyib: "Azərbaycan haqqında möhtəşəm mahnım var. Bugünlərdə mahnını tamaşaçıların ixtiyarına verəcəyik. Layihə üzərində Ramil Qasımovla birgə çalışırıq. O, əsərlə tanış olanda mahnını neçə yaşımda yazdığım barədə soruşdu. Biləndə ki, onu 25 yaşımda yazmışam, çox təəccüb etdi. Tanrıma şükür edirəm ki, mənə bu cür istedad verib".**

Daha sonra əməkdar artist qeyri-adi geyimlərindən bəhs edib: "Mən taykeş ayaqqabı geyinəndə çoxları mənə istehza etdi. "Bu şəhərdə"nın aktyorları Rafael və Coşqun məni yamsıladı, mətbuatda haqqımda olmazın sözlər yazıldı. Lakin bugünlərdə eşitdiyim məlumata görə, məndən sonra ABŞ-ın prezidenti Barak Obamanın xanımı taykeş ayaqqabı ilə idman zalına gedib. Bu da onu göstərir ki, Elza heç vaxt səhv etmir".

**Elza Seyidcahan təyyarədə keçirəcəyi konsert haqqında da danışıb:** "Türkiyədə mənim bu layihəmi eşidib çox bəyəndilər. Hər kəs həmin konsertin nə zaman keçiriləcəyi barədə maraqlanır. İnşallah, ölkəmizdə keçiriləcək ilk Avropa Oyunlarından sonra bu layihəmi də həyata keçirəcəm".

Xatırladaq ki, ötən ay əməkdar artist Elsa Seyidcahan Bakı-İstanbul reysində konsert verəcəyi barədə açıqlama vermişdi. AZAL-ın o vaxtkı xidmət rəisi Məhərrəm Səfərli musavat.com-a bildirmişdi ki, bu cür konsertin təyyarədə keçirilməsi qeyri-realdır və təyyarədəki insanların təhlükəsizliyi baxımından qadağandır. AZAL rəsmisinin sözlərinə görə, müğənni Elza Seyidcahan yalnız 200 sərnişinə Bakı-İstanbul-Bakı reysi ilə bilet alıb, təyyarənin icarə haqqını ödədikdən sonra konsert verə bilər. Müğənni isə buna cavab olaraq tələb olunan məsrəfi ödəyəcəyini demişdi.

❑ **Xalidə Gəray**

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Müxalifət Cümhuriyyət bayramını Novxanıda qeyd edəcək

**Bu gün görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə bütün Şərqdə ilk dəfə olaraq yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin 97-ci ildönümüdür. Bu münasibətlə Azərbaycanın bir sıra partiya və təşkilatları tədbirlər həyata keçirəcək.**

Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı bu barədə "Yeni Müsavat"ın əməkdaşına açıqlama verib: "Ənənəyə sadiq qalaraq bu il də 28 may Respublika Günü münasibətilə partiyamızın rəhbər və üzvləri M.Ə.Rəsulzadənin abidəsini ziyarət edəcək. Tədbir çərçivəsində həmçinin tərəfimizdən Azərbaycanda milli azadlıq hərəkatının lideri Əbülfəz Elçibəyin qəbri də ziyarət olunacaq".



Azərbaycan Xalq Cümhuriyyətinin 97-ci ildönümü münasibətilə iqtidar da tədbirlər həyata keçirəcək. Belə ki, Bakı Şəhər İcra Hakimiyyətindən mətbuata verilən məlumata görə, bu gün Milli Parkda geniş konsert proqramı təşkil ediləcək. Konsert Saat Qülləsinin yanında incəsənət ustalarının iştirakı ilə saat 21.00-da baş tutacaq. Konsert ərəfəsində möhtəşəm atəşfəşanlıq olacağı gözlənilir.

❑ **Xalidə Gəray**



# Taleh Xasməmmədovun məhkəməsi yarıqapalı keçirilir

**Mayın 26-da Göyçay Rayon Məhkəməsində hakim Elxan Babayevin sədrliyi ilə hüquq müdafiəçisi Taleh Xasməmmədovun cinayət işi üzrə məhkəmə baxış iclası keçirilib.**

Bu barədə musavat.coma onun yaxınları məlumat verdilər: "Məhkəmə yarıqapalı keçirilir. Talehin və vəkilinin verdiyi vəsatətlər təmin olunmur. Yalançı şahidləri məhkəməyə cəlb ediblər, onlar da öyrədilmiş qaydada şablon ifadələr verirlər. Hadisənin necə baş verməsini, yəni Talehin necə şərlənməsini görən və məhkəmədə ifadə vermək istəyən adamların şahid kimi dindirilməsinə imkan verilmir. Talehin heç bir günahı olmadığı əslində məhkəmədə də sübut olunur".

**Ailə üzvlərinin dediyinə görə, məhkəmə zamanı Taleh Xasməmmədovun işinin ibtidai istintaq zamanı saxtalaşdırıldığı da üzə çıxıb:** "Növbəti məhkəmə prosesi iyunun 2-nə təyin edilib. Qarşıdan Avropa Oyunları gəlir. Biz qətiyyən istəmirik ki, belə bir ərəfədə ölkədə hüquq müdafiəçisinin şərlənərək həbs olunmasını bütün dünya bilsin. Cənab prezidentdən xahiş edirik ki, bu işə ədalətli baxılması üçün müvafiq orqanlara göstəriş versin. Taleh bir neçə il öncə də şərlənərək həbs edilmişdi, vicdan məhbusu elan olunmuşdu, cənab prezident onu əfv etdi. 2015-ci ilin fevralında isə Talehi yerli icra strukturlarının fəaliyyətini tənqid etdiyi üçün rayonda şərləyib həbs etdilər. Onun üzünə duran adamın adı indiyədək bir neçə cinayət işində keçir. Cənab prezident bir neçə gün öncə elan etdi ki, Azərbaycanda hüquqi dövlət qurulur. Ümid edirik ki, hakim Elxan Babayev də prezidentin siyasi kursuna sadiq qalaraq ədalətli qərar çıxaracaq".

❑ **T.ƏHMƏDLİ**

# Hacı İbrahim Nehrəmli azadlığa buraxıldı



## "Vaxtı keçmiş kreditimi bağladım, qalan hissəsini isə qrafikə uyğun ödəyəcəm"

**Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən saxlanılan "Avesta" konserninin prezidenti, iş adamı Hacı İbrahim İbrahimov (Nehrəmli) bu gün sərbəst buraxılıb. Bu barədə iş adamı özü "APA-Economics"ə bildirib.**

"Bildiyiniz kimi, mənim Azərbaycan Beynəlxalq Bankından götürdüyüm kreditin vaxtı 2019-cu ildə başa çatır. Vaxtı keçmiş kreditimi bağladım, qalan hissəsini isə qrafikə uyğun ödəyəcəm", - deyə o qeyd edib. Konsernin prezidenti qeyd edib ki, onun ölkədən qaçarkən saxlanılması ilə bağlı mətbuatda yayılan xəbərlər həqiqəti əks etdirmir. Bir müddət öncə ölkəni tərk etməsinə qoyulan qadağanın aradan götürülüb-götürülməməsi ilə bağlı suala isə iş adamı bu cür cavab verib: "Hər şey normaldır, qaydasındadır".

O qeyd edib ki, "Avesta" konserninin ləğv olunması və ya satılması ilə bağlı yayılan xəbərlər də yalandır.

# Erməni anaları: "Oğullarımızın Qarabağda ölməsini istəmirik"

**Ermənistan prezidentinin ofisi qarşısında silahlı qüvvələrdə qeyri-döyüş şəraitində ölmüş əsgərlərin valideynlərinin növbəti etiraz aksiyası keçirilib. Oxu.az epress.am saytına istinadla xəbər verir ki, etirazçıların sözlərinə görə, ekspertizalar göstərib ki, onların oğulları öldürülüb və məmurlar bu faktlara laqeyd yanaşırlar.**

Ölmüş əsgərlərdən birinin atası Ovsep Muradyan bildirib ki, o, Ermənistan vətəndaşının Dağlıq Qarabağda hərbi xidmət keçməsinin qanunsuz olduğu barədə məsələ qaldırıb.

Muradyanın sözlərinə görə, ombudsman da işlə bağlı maraqlanmır və parlamentdə yalan olaraq bildirib ki, Qarabağda xidmət çəkmiş əsgərlərin valideynlərindən şikayətlər almayıb.

# Masallıda oğurluq və quldurluq tüğyan edir

**Masallı rayonunda kütləvi oğurluq hadisələri davam edir. Muavat.com cenubnews.com-a istinadən xəbər verir ki, rayonun Boradigah qəsəbəsində baş verən çoxsaylı oğurluq hadisələri yerli sakinləri dözülməz həddə çatdırıb.**

Ötən gecə sözügedən qəsəbədə "ələ keçməz" oğrular kənd sakini Teymurov Əlipənah Xanış oğlunun evini çapıb talayıblar. Hadisə yerinə polis çağırılıb. Lakin polis yenə də sakinləri ümid verməklə sakitləşdirib. Oğruların isə Boradigahda çapıb-taladıqları evlərin sayı-hesabı itib. Onu da qeyd edək ki, cinayətkarlar yalnız qızıl-zinət əşyaları və pul oğurlayırlar.

Rayonun Ərkivan qəsəbəsində baş vermiş tükürpədici cinayətin üstü də hələ ki açılmayıb. Xatırladaq ki, bu il yanvar ayının 25-i, gecə saat 03:30 radələrində Ərkivan qəsəbə sakini, 43 yaşlı İlqar Məmmədov və onun həyat yoldaşı - 35 yaşlı Qərənfil Məmmədovaya üç nəfər maskalı şəxs küt alətlə xəsarət yetirərək pul tələb ediblər. Cinayətkar dəstə evdəki uşaqların əl-ayağını, ağzını bağlayıb, onlara da fiziki güc tətbiq ediblər. Maskalı şəxslər ev sahibəsinin qızıl boyunbağını, üzüyünü, evdə olan 2 mobil telefonu və daha bir neçə qiymətli əşyanı qarət edərək aradan çıxıblar. Ev sahibləri ağır bədən xəsarətləri ilə Masallı Mərkəzi Rayon Xəstəxanasına yerləşdiriliblər.



# İsa Qəmbər Füzulidə səfərdə olub

**Müsavat Partiyasının sabiq başqanı, Azərbaycan Milli Strateji Düşüncə Mərkəzinin sədri İsa Qəmbər srağagün Füzuli rayonunda olub. Bu barədə İsa Qəmbər özünün facebook səhifəsində yazıb. O qeyd edib ki, uzun illərdən sonra ilk dəfə Füzuli rayonuna gedib: "Uzun illərdən sonra ilk dəfə Füzuli rayonuna getdim, bizim nəzarətdə olan kənd və qəsəbələrdə oldum, fədakar müsavatçımız və dəyərli dostumuz Hacıbaba bəyin 40 mərasimində iştirak etdim, vəsiyyətinə görə tərtib edilmiş məzarını ziyarət etdim, yerli müsavatçılarla və digər ləyaqətli insanlarla söhbət etdim".**

İsa Qəmbər Füzulidə sərhəd məftillərindən o tərəfə-Güneyə də baxdığını, bölgəni yaxşı bilən dostlarının işğal altında olan torpaqlarımızı-Füzuli şəhərini (tarixi Qarabulaq), kəndlərimizi və Məngələnata yüksəkliyini də ona göstərdiyini qeyd edib. Sonda isə "Biz o torpaqlara dönəcəyik" fikrini yazıb.

Xatırladaq ki, əslən Füzuli rayonundan olan İsa Qəmbər Ali Sovetin sədri vəzifəsində işləyərkən indi xüsusi adını çəkdiyi Məngələnata yüksəkliyinin ermənilərin əlinə keçməməsi və rayonun işğalının qarşısının alınması uğrunda döyüşlərə rayona gedərək rəhbərlik etmişdi. Həmin döyüşlərdə erməni ordusu geri oturdulmuşdu.

❑ **E.SEYİDAĞA**

# Deputat Fərhad Qəribovun oğlu saxlanıldı

**Milli Məclisin deputatı, iş adamı Fərhad Qəribovun oğlu Elnur Qəribov ötən gün hüquq- mühafizə orqanlarının əməkdaşları tərəfindən saxlanılıb. Musavat.com-un Qafqazinfo-ya istinadən xəbərinə görə, bu barədə ailəyə yaxın şəxslər tərəfindən məlumat verilib.**

Deputat oğlunun hansı səbəbdən saxlanılması hələ ki bəlli deyil. Qeyd edək ki, E. Qəribovun özü də iş adamı kimi fəaliyyət göstərir. Onun adına bir sıra banklarda kreditlər olub.

E. Qəribovun banklardan böyük miqdarda kredit götürdüyü təsdiqlənsə də, dünən hansı səbəbdən saxlanılması, xüsusilə də məlum "Beynəlxalq Bank işi"ndə dindirilib-dindirilməməsi ilə bağlı dəqiq məlumatımız yoxdur.

Onu da qeyd edək ki, deputat oğlunun dindiriləndən sonra sərbəst buraxıldığı deyilir.

Həmçinin bildirək ki, deputatın digər oğlu Zöhrab Qəribovun da axtarışa verilməsi barədə məlumat yayılıb.

Xatırladaq ki, mətbuatda zaman-zaman deputat Fərhad Qəribovun külli miqdarda borcu olması və götürdüyü kreditləri qaytarmaması barədə informasiyalar yazılıb. Onun "Şəki" restoranlar şəbəkəsinin, lisenziyası ləğv olunmuş Debut Bankın rəhbəri olduğu bildirilir.

YENİ MÜSAVAT
N 115 (6143) 28 may 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Hakimiyyət Con Kerriyə inanmır

**ABŞ dövlət katibi Con Kerri Azərbaycan xalqını 28 May - Respublika Günü münasibətilə təbrik edib. APA-nın ABŞ Dövlət Departamentinin saytına istinadən verdiyi xəbərə görə, dövlət katibi təbrik məktubunda Azərbaycan xalqının 97 il əvvəl müsəlman dünyasında ilk dünyəvi demokratik respublika yaratdığını qeyd edib: "Həmin vaxtdan, eləcə də 1991-ci ildə Sovet İttifaqının tərkibindən ayrılaraq müstəqilliyinizi bərpa etdikdən bəri ölkələrimiz Azərbaycanın müstəqilliyinin təminatında birgə əməkdaşlıq edir".**

## Aydın Mirzəzadə: "Narahatlıq qalır, həmin suallar gündəmdədir"

Dövlət katibi ABŞ-ın Azərbaycanın "Cənub Qaz Dəhlizi" vasitəsilə Avropanın enerji təminatının şaxələndirilməsindəki rolunu ciddi şəkildə dəstəklədiyini vurğulayıb. Con Kerri həmçinin Vaşinqton və Bakının terrorizmlə mübarizədə və Əfqanıstanda NATO-nun missiyası çərçivəsində regional və beynəlxalq təhlükəsizliyin təminatında əməkdaşlıq etdiyini qeyd edib.

Con Kerri ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasında, transmilli təhlükələrə qarşı mübarizədə və qanunun aliliyinin təmin olunmasında səylərini davam etdirdiyini qeyd edib.

Qeyd edək ki, Con Kerridən əvvəl ABŞ prezidenti Barak Obama da Azərbaycanın dövlət başçısını 28 may münasibətilə təbrik edib. C.Kerri isə Azərbaycan xalqına ünvanlandığı təbrikində bir sıra ənənəvi məsələlərə, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin həllinə toxunub. Diqqəti çəkən məqam ondan ibarətdir ki, hazırda ABŞ-Azərbaycan münasibətləri heç də əvvəlki illərdə olduğu kimi deyil, münasibətlərdə ciddi soyuqluq elementləri müşahidə olunur. Konkret olaraq C.Kerri Azərbaycana qarşı fəaliyyətdə ittiham olunub.

**ABŞ dövlət katibinin Azərbaycan xalqını təbrik etməsi və xüsusi olaraq Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində səylərini davam etdirməsi açıqlamasını Yeni Azərbaycan Partiyasının Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri, Milli Məclisin deputatı Aydın Mirzəzadə müsbət qarşılasa da, iradların da olduğunu deyir:** "Dünyada Dağlıq Qarabağ münaqişəsi kimi münaqişələr çoxdur. Ancaq bizim ərazi bütövlüyümüz məsələsi az-az məsələlərdəndir ki, bununla bağlı dünyanın 3 nüfuzlu ölkəsinin həmsədrliyi ilə vasitəçi qurum yaranıb. Bu qurumun fəaliyyətindən Azərbaycan cəmiyyəti bu gün razı deyil. Ümumən götürəndə Azərbaycan xalqı hər zaman ABŞ, Rusiya və Fransadan bu problemin həllində öz fəallığını artırmasını tələb edə bilər. Vaxtaşırı olaraq Azərbaycan və Ermənistan rəhbərlərinin görüşməsi, bu mövzunun beynəlxalq tədbirlərin gündəliyinə və qətnaməsinə salınmasının özü problemin beynəlxalq siyasətin gündəliyində olduğunu göstərir. Bir tərəfdən biz böyük dövlətlərin bu məsələyə diqqət yetirməsindən razılıq edirik. Ancaq digər tərəfdən, hesab edirik ki, onlar lazımi diqqət göstərmirlər. Bu məsələdə hələ də arzulanan nəticəni əldə etmək mümkün deyil. ABŞ-ın Azərbaycanı problemin həlli üçün danışıqlara çağırmasına müsbət baxırıq. Və buna dost və müttəfiq ölkənin bir qayğısı kimi baxırıq. Ancaq məsələ problemin niyə həll edilməməsinin araşdırılmasından gedir".



**A.Mirzəzadə deyir ki, vasitəçi dövlətlər, o cümlədən ABŞ hələ də münaqişənin həlli ilə bağlı əsas məqama diqqət etmək istəmirlər. Bu isə münaqişənin həllini uzadır:** "Hesab edirəm ki, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımaması, Azərbaycan ərazisinin 20 faizində qoşunlarının olması problemin həll olunmamasının əsas məqamıdır. Nədənsə bu məsələyə həmsədr ölkələr xüsusi diqqət yetirmək istəmirlər. İşğalçı dövlət olan Ermənistana qarşı bu gün hər hansı bir sanksiya tətbiq edilmir. Ermənistandan problemin həlli tələb edilmir. Ermənistan işğalçı adlandırılmır. Bir tərəfdən Azərbaycan probleminin həllinə diqqət yetirilməsinə öz razılığını bildirir, ancaq bu yanaşma tam deyil, bu yanaşma hələ də işğalçının öz adı ilə çağırılması hadisəsi deyil. Nə qədər ki, Ermənistan işğalçı kimi çağırılmayıb, Azərbaycan problemin həll edilməsində bütün vasitələrdən, o cümlədən hərbi variantdan istifadə etmək hüququnu özündə saxlayır".

**O ki qaldı Kerrinin Azərbaycana qarşı fəaliyyətlərinə, A.Mirzəzadə deyir ki, bu iradlar və tələblər qüvvədə qalır:** "Bir qədər əvvəl mətbuatda ABŞ dövlət katibinin ofisində Azərbaycanın daxili işlərinə qarışmaqla bağlı bir planın hazırlanması haqda məlumat yayıldı. Və bu, faktlarla, sənədlərlə əsaslandırıldı. Ona görə də Azərbaycan bu məsələyə öz etirazını bildirdi və ABŞ-ın tanınmış bir siyasi xadiminin ofisindən bu məqsədlər üçün istifadə edilməsinin səbəblərini soruşdu. Düzdür, ABŞ tərəfdən bu məlumatın həqiqətə uyğun olmadığını bildirdilər. Ancaq yenə də həmin o narahatlıq qalır, həmin suallar gündəmdədir. Hesab edirik ki, dövlət katibi belə məsələlərdə kifayət qədər diqqətli olmalı, Azərbaycanın suverenliyinin qorunmasına öz töhfəsini verməlidir. Ancaq sonuncu məsələyə gəldikdə, bu artıq Kerridən öncə ABŞ dövlətinin mövqeyidir və Kerri öz dövlətinin mövqeyini bu şəkildə ortaya qoyub".

❑ **KƏNAN**

# "Azadlıq-2015" seçki bloku prezidentə təklif ünvanladı

## "Nazirlər Kabineti və Mərkəzi Bankın sədri istefaya göndərilsin"

**27 may 2015-ci il tarixdə "Azadlıq-2015" seçki blokunun Sədrlər Şurasının iclası olub. İclasda KXCP, Azadlıq, BAP, VİP, ALDP, Aydınlar Partiyası və AXP sədrləri iştirak ediblər.**



Qurumdan musavat.com-a verilən məlumata görə, toplantıda son hadisələrlə bağlı ölkədə yaranmış ictimai- siyasi vəziyyət müzakirə edilib və qərarlar qəbul edilib. Blok prezident İlham Əliyevə təklif edib. Təklif bundan ibarətdir; aşkara çıxmış korrupsiya faktlarının obyektiv araşdırılmasına imkan yaratmaq və vahiməyə düşmüş məmur təbəqəsinin dövlət üçün təhdid yarada biləcək təxribatlarının neytrallaşdırılması üçün A.Rasizadə başda olmaqla, Nazirlər Kabinetini və Mərkəzi Bankın sədrini istefaya göndərsin və Nazirlər Kabinetini yenidən formalaşdırsın.

"Azadlıq-2015" Nazirlər Kabinetinin təşkilinin prezidentin müstəsna səlahiyyəti olduğunu qəbul edərək, hadisələrdə məsuliyyəti olan şəxslərin, oliqarx- məmurların yeni kabinetin tərkibinə daxil edilməsinin məqsədəuyğun olmadığı rəyini ifadə edir.

Bundan əlavə, toplantıda parlament seçkilərinin iki ay təxirə salınması məsələsinə baxılması, Milli Məclisin tətilinin ləğv edilməsi təklif edilib.

Blok ölkə vətəndaşlarına müraciət edərək, ölkənin taleyi üçün çox məsuliyyətli bir məqamda səfərbər olmağa, o cümlədən I Avropa Oyunlarının tam təhlükəsiz və uğurlu başa çatması üçün hər kəsi əlindən gələni əsirgəməməyə çağırıb.




# KİVDF yeni müsabiqə elan etdi

**Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu "l Avropa Oyunlarını ən geniş və dolğun işıqlandıran KİV" mövzusunda kütləvi informasiya vasitələri arasında müsabiqə elan edib. Fonddan verilən məlumata görə, müsabiqənin qaydaları aşağıdakı kimidir.**

1. Bu qaydalar Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nda (bundan sonra - Konsepsiya) əks olunmuş prioritet sahələrə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu (bundan sonra - Fond) tərəfindən KİV-lərin mükafatlandırılması ilə bağlı məsələləri tənzimləyir.

2. Müsabiqədə ən azı 1 (bir) il müddətində fəaliyyət göstərən kütləvi informasiya vasitələri (televiziya kanalları, qəzetlər, jurnallar, informasiya agentlikləri və internet informasiya resursları) iştirak edə bilərlər.

3. Mətbuat Şurasının tərtib etdiyi "qara siyahı"ya düşmüş KİV-lər-in müsabiqədə iştirakına yol verilmir.

4. Müsabiqənin maliyyələşdirilməsi qaydaları Fondun Müşahidə Şurası tərəfindən müəyyənləşdirilir.

5. Mövzunun KİV-lər tərəfindən əhatə olunması səviyyəsini müəyyənləşdirmək üçün Fondun Müşahidə Şurası tərəfindən xüsusi Monitorinq Qrupu yaradılır və onun tərkibi təsdiq edilir.

6. Qiymətləndirmə meyarları:

- mövzunun əhatə olunması, idman yarışlarının işıqlandırılması, jurnalist təhlili;
- fəaliyyətin cəmiyyət üçün informasiyalılıq səviyyəsi;
- jurnalist obyektivliyi, qərəzsizliyi, tərəfsizliyi və məsuliyyəti;
- ictimai maraqların müdafiəsi.

7. Müsabiqədə qaliblərinin mükafatlandırılması:

I -ci yer üçün 1 KİV 30 000 AZN
II -ci yer üçün 2 KİV 15 000 AZN
III -cü yer üçün 2 KİV 10 000 AZN

8. Nəticələri yüksək qiymətləndirilmiş KİV-lər Müşahidə Şurasının qərarı ilə Fondun icraçı direktoru tərəfindən təsdiq edilir və müsabiqənin yekunları haqqında iştirakçılara və ictimaiyyətə məlumat verilir.

9. Müsabiqə 2015-ci mayın 27-də başlayır və iyulun 1-də başa çatır.

# Yanan bina hakimiyyətiçi savaşı alovlandırıb?

**Binəqədidə baş verən məlum yanğın hadisəsi bütün sahələrə ciddi təsir etdiyi kimi, hakimiyyətdaxili narazılıqlardan da yan keçmədi. Dəhşətli faciə əvvəllər işartıları görünən iç savaşın alovlanmasına səbəb oldu. Məsuliyyətdən yayınmaq üçün yüksək rütbəli dövlət məmurları bir-birini tənqid etmək yolunu seçdilər.**

Baş verən yanğın hadisəsindən daha çox binaların poliuretan üzlükləri əsas müzakirə mövzusuna çevrildi. Heç şübhəsiz, bu cür əşyaların hazırlanması yaxud ölkəmizdə gətirilməsinin arxasında iri ranqlı məmurlar dayanır. Dövlət məmurlarının yanğınla bağlı verdikləri müsahibələrdə əsas yayındıqları sual, məhz poliuretan üzlüklərin kimə məxsus olması oldu. Baş nazirin müavini, Dövlət Komissiyasının sədri Abid Şərifov, eləcə də BŞİH başçısı Hacıbala Abutalıbov jurnalistlərə müsahibələrində açıq şəkildə bu suala cavab vermədilər.

Xatırladaq ki, hakimiyyətdaxili təlatümün meydana gəlməsi halı sonuncu dəfə 10 il öncə Hacı Məmmədovla bağlı olmuşdu. İqtidar çətinliklə də olsa, o təlatümün qarşısını ala bilmişdi. Maraqlıdır, hazırda yaşanan situasiyanı hakimiyyət durdura biləcəkmi?

**"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev** hesab edir ki, hazırda yaşanan hakimiyyətdaxili savaşda ciddi kadr dəyişiklikləri olmayacaq: "İri dövlət məmurlarının vəzifəsini itirəcəyini gözləmək, məncə, doğru olmaz. Çünki problem elədir ki, burada üzdə olan məmurların maraqları var. Təkcə bu məsələ ilə bağlı deyil. Başqa səbəblər də var. Zəncirvari bir vəziyyətdir. Bundan qabaq da bizdə bu tipli hadisələr olub. Fövqəladə Hallar Nazirliyinə yeni səlahiyyətlərin verilməsi prezidentin açıq dəstəyini göstərir. Burada birinci məsuliyyət bu qurumun üzərinə düşür".



**Mehman Əliyev:**
"2005-ci il hadisələri kimi xəyanət olarsa..."



**Zahid Oruc:**
"İndiki situasiyada vəzifədən getmək dövlətə və millətə xidmət olar"

**"Turan" rəhbəri həbslərin yüksək dairələrə gedəcəyini düşünmür:** "Bu həbslər daha çox yüksək rütbəli məmurların bizneslərini fırladan şəxslərə şamil olunacaq. Bu insanları ortaya atıblar, istifadə ediblər. Dövlət maraqlarından söhbət getmir. Hakimiyyət bütövlükdə dövlətə atır. Burada söhbət hakimiyyətin başında duranların pullarının iş adamları tərəfindən oğurlanmasından gedir. Ona görə də onlar məsuliyyətə cəlb olunurlar. Sizə imkan vermişik, bundan istifadə etmisiniz, gəlin cavab verin. Söhbət bundan gedir. Hansısa nazirin vəzifəsini itirəcəyini düşünmürəm. Belə bir vəziyyət yaransa, Nazirlər Kabineti bütövlükdə getməlidir. Kimsə ciddi şəkildə xəstələnsə, yaxud başqa hadisə baş verərsə, ola bilər. Bu komandanın tarixi göstərir ki, ciddi xəyanət olmayıbsa, cəzalandırma olmur. Amma 2005-ci il hadisələri kimi xəyanət olarsa, sona qədər cəzalandırma olur".

**İqtidaryönlü deputat Zahid Oruc baş verən pozuntuların maraqlara və qeyri-peşəkarlığa söykəndiyini bildirdi:** "İstənilən hakimiyyət müxtəlif baxışlar sisteminə malik insanlardan ibarətdir. Siyasi xətti dövlət başçısı müəyyənləşdirməyinə baxmayaraq, hər kəs buna qeyd etdiyimiz parametrlərə uyğun şəkildə yanaşmağa çalışır. Hazırda dövlət inkişafının elə mərhələsindəyik ki, məsuliyyətləri bir-birinin üzərinə atmaq daha çox xilas olmaq cəhdidir. Son hadisə fonunda müəyyən ümumxalq qınaqları var. Heç kəs istəmir ki, tarixə bu hadisə fonunda qara adla düşsün. Bu, qətiyyən hakimiyyətiçi savaş demək deyil. Məsuliyyətin üzərindən atılması cəhdləri belə təəssürat yaradır. Komandanın monotipliyi haqqında dediyimiz sözlər sanki müəyyən zərbə alır. Dövlət başçısı bu ağrını çiyinlərinə götürməklə, xalqa yön verməklə, sanki məmurları xilas yoluna çevirdi. Dünənə qədər səlahiyyət uğrunda dava gedirdi, amma bu gün məsuliyyəti üzərilərindən atmaq üçün savaş gedir. Əgər kimsə bundan narahatdırsa, vəzifəsindən getsin. Ola bilsin ki, onların keçmişdə müsbət xidmətləri olsun. Bunu heç kəs şübhə altına almır. İndiki situasiyada vəzifədən getmək dövlət və millətə xidmət olar. Doğrudan da vəzifədən getmək bu qədər dəhşətlidir? Bununla onlar var-dövlətlərini, həyatlarını itirmirlər. Məsuliyyət götürməyən məmur dövlət, hakimiyyət və millətə gərək deyil. Zamanında parlamentdə Vahid Tikinti Nazirliyinin yaradılması ilə bağlı təklif vermişdim - cəmiyyətdə bu işlərə etimadın yüksək olması üçün. İnsanlar bəzən quruculuğu qınaqla qarşılayırlar. Çünki kiminsə bunların fonunda külli miqdarda pul mənimsədiyini düşünürlər. Yanğın hadisəsi hökumət strukturları arasındakı rabitəsizliyi, mənəm-mənəmliyi, qanunun tapdanmasını sübuta yetirdi. Çıxış yolunu ölkə rəhbəri göstərdi. Əgər kimsə vəzifəsindən getməyi qərarlaşdırmırsa, bu, onların reallıq hissini itirməklərinin göstəricisidir".

❑ **Cavanşir ABBASLI**

# Hüquq müdafiəçiləri həbs edilən oliqarxları müdafiə edəcəkmi?



**Elçin Behbudov:**
"Bu pullar onların burunlarından gəlməlidir"



**Səadət Bənəniyarlı:**
"Hər kəs qanun qarşısında cavab verməlidir"



**Mirvari Qəhrəmanlı:**
"Onların bizlərə ehtiyacı yoxdur"

**Son yarım ayda cəmiyyətin və mətbuatın əsas müzakirə mövzusu oliqarxların həbsidir. Hər ötən gün məsuliyyətə cəlb olunanların əhatə dairəsi genişlənir. Həbs olunanların müdafiəsi istiqamətində heç bir iş görülmür. Bəs hüquq müdafiəçiləri bu prosesdə hansı mövqe tuturlar?**

**İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin sədri Elçin Behbudov** həbs edilənlərin dövlət vəsaitini mənimsədiklərini qeyd etdi: "Bildiyimiz kimi, bu şəxslər külli miqdarda milyonlarla pul mənimsəyiblər. Əlbəttə ki, bu əməllərinə görə cavab verməlidirlər. Ədalət məhkəməsindən qaça bilməzlər. Amma çalışdığımız odur ki, onlara təzyiq olmasın, işgəncə verilməsin. Mayın 29-da Bayraq Meydanı İdarəsinin keçmiş rəisi Rəşad Məmmədovla MTN təcridxanasında görüşəcəm. Yaxın günlərdə isə Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsində görüş təşkil etməyi nəzərdə tutmuşam. Onların saxlanma şəraitləri, təzyiq olunub-olunmaması ilə maraqlanacam. Bütün Azərbaycana məlumdur ki, bu iş adamları milyonlarla dövlət pulunu mənimsəyiblər. Bu pullar onların burunlarından gəlməlidir. Elədikləri əməllərə görə cavab verməlidirlər. Komitə olaraq, işimiz onlara təzyiqlərin olmaması ilə bağlıdır. Cinayət törədiblərsə, cəzasını çəksinlər".

**Elçin Behbudov həbs edilənlərə işgəncə verilməsi ilə bağlı xəbərlərə belə münasibət bildirdi:** "Yazırlar ki, filankəsə işgəncə verilib. Gedib görüşəndə görürsən ki, belə hal yoxdur. Özüm görüşəndən, onlarla danışandan sonra belə bir fakt təsdiqini taparsa, qeyri-insani rəftar olarsa, bundan DİN və ölkə prezidentinə müraciət edəcəm. Təbii ki, bu kimi xəbərlər təsdiqini taparsa. Çünki yüzlərlə belə hallarla qarşılaşmışam. Deyilənlər həqiqət olmur. Gözümlə görməsəm, inanmaram".

**Hüquq müdafiəçisi Səadət Bənəniyarlı baş verən prosesləri diqqətlə izlədiklərini söylədi:** "Təbii ki, bu həbslər diqqətimizdədir. İstər məmur, istərsə də adi insan olsun, hüquqları pozularsa, biz bunu nəzərə alırıq və etirazımızı bildiririk. Amma hələ ki istintaq gedir. Bizə onların özündən hər hansı bir məsələ ilə bağlı şikayət olarsa, məşğul olacağıq. Hələ ki belə bir müraciət olmadığı üçün gözləyirik. Hər şey istintaqın başa çatmasından asılıdır. Azərbaycanda korrupsiyaya qarşı aparılan mübarizə normaldır. Əgər hüquq pozuntusu varsa, cavab verməlidirlər. Vətəndaş kreditə görə əmlakından məhrum edilir. Amma bu oliqarxlar milyonları gizlədirlər. Nəticədə dövlət büdcəsinə zərər vurulur. Bunlar təbii ki, aradan qaldırılmalıdır. Hər kəs qanun qarşısında cavab verməlidir. Onlardan kimlərisə öz təşəbbüsümüzlə müdafiə etmək mümkün deyil. Ya ailə üzvləri, ya da yaxın bir insan gəlib, onların hüquqlarının pozulması ilə bağlı məlumat verməlidir. Biz bunu araşdırırıq. Amma hazırda bizə belə bir məlumat daxil olmayıb".

**Digər hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı hesab edir ki, ilk növbədə, oliqarxların həbsinin səbəblərini aydınlaşdırmaq lazımdır:** "Saxlanılanların həbs səbəbi məlum deyil. Təbii ki, həbs olunan şəxslərdən Hacı İbrahim Nehrəmli barəsində zamanında böyük narahatçılıq yaşanmışdı. Əgər onları korrupsiyaya görə həbs ediblərsə, bunlar sübut olunmalıdır. Oxuyuram ki, bunlar kredit götürüblər, amma zamanında ödəyiblər. Yəni qayda-qanunu pozmurlar. Əgər hökumət cəmiyyətə tam aydınlıq gətirsə ki, bunları nəyə görə tutublar, kökündə nə dayanır, o zaman hüquq müdafiəçiləri onları müdafiə edə bilər. Hüquq müdafiəçisi qanunun tərəfində durur, insanı vəkillə bərabər müdafiə edir. Bu insanların suçu barədə cəmiyyətə tam açıqlama verilməyib. Əgər real açıqlama verilsə, həqiqət ortaya çıxsa, hər şey asan olar. Burada korrupsiya əməli varsa, ikitərəfli məsuliyyət var. Həm bank, həm də müştəri məsuliyyət daşıyır. Öz adımdan deyirəm, insanı o vaxt müdafiə etmək olar ki, əlində əsas olsun. Hələ ki cəmiyyətə bu həbslərin kökündə duran səbəb açıqlanmayıb. Əsl səbəb nədənsə gizli saxlanılır. Səbəblərin açıqlanması ilə bağlı mətbuat bizdən çox işləyir. İctimaiyyətə əsl həqiqət mütləq açıqlanmalıdır. Onda cəmiyyətin kimi qınayacağı bəlli olacaq. Bankımı, ondan üst səviyyədə duran korrupsionerimi yoxsa insanımı? Hüquq müdafiəçisi hədəf nöqtəsini tapmalıdır. Açıqlansa, hüquq müdafiəçisi hədəf nöqtəsini asan tapacaq".

**Mirvari Qəhrəmanlı hesab edir ki, həbs edilənlərin heç birinin onlara ehtiyacı yoxdur:** "Onlar elə ranqda olan insanlardır ki, nə vətəndaş cəmiyyəti, nə də hüquq müdafiəçiləri maraqlandırır. Yaxşı vəkilləri də var. Digər şübhəli şəxslər kimi, onlara təzyiqlərin olacağına da inanmıram. Onların bizlərə ehtiyacı yoxdur".

❑ **Cavanşir ABBASLI**



# Məhkəmə ilahiyyatçını ev dustaqlığına buraxmadı

## Səbayel Məhkəməsi "Təkamül" Tərcümə Mərkəzinin rəhbəri Ceyhun Cəfərovla bağlı vəsatəti rədd edib

**Mayın 27-də Səbayel Rayon Məhkəməsində ilahiyyatçı Ceyhun Cəfərovun ev dustaqlığına buraxılması ilə bağlı iddiaya baxılıb. Bu barədə "Yeni Müsavat"a ilahiyyatçının vəkili Cavad Cavadov məlumat verib. Onun sözlərinə görə, Cinayət Məcəlləsinin 274-cü maddəsi (dövlətə xəyanət) ilə təqsirləndirilən Ceyhun Cəfərovun həbsinin ev dustaqlığı ilə əvəz olunmasına dair müdafiə tərəfinin vəsatətinə baxılması prosesində müvəkkilinin özünün iştirakı təmin olunub.**

Məhkəmə prosesində vəkil vəsatəti müdafiə edərək ilahiyyatçının həbsinin əsassız olduğunu və onun bu günə qədər həbsdə saxlanılmasının yolverilməzliyini diqqətə çatdırıb. Məhkəmə prosesində çıxış edən Ceyhun Cəfərov bir daha təqsirli olmadığını bildirib və həbsinin səbəblərini indiyədək anlamadığını deyib. Lakin bütün bunlara baxmayaraq, məhkəmə vəsatəti təmin etməyib. C.Cəfərov həbsdə saxlanılıb. C.Cavadov deyir ki, müdafiə tərəfi məhkəmənin qərarından apelyasiya şikayəti verməyə hazırlaşır.

Xatırladaq ki, ilahiyyatçı, "Təkamül" Tərcümə Mərkəzinin rəhbəri Ceyhun Cəfərov martın 10-da MTN əməkdaşları tərəfindən saxlanılıb. Ona qarşı Cinayət Məcəlləsinin 274-cü maddəsi ilə istintaq başladılıb və barəsində həbs-qətimkan tədbiri seçilib. Ceyhun Cəfərov "Space" televiziyasında "Gecə söhbətləri" verilişinin aparıcı olub. Bakı İslam Universitetində dərs deyib.

C.Cəfərov barəsində ötən həftə məhkəmə 4 aylıq həbs-qətimkan tədbiri seçib. Martın 16-da isə MTN əməkdaşları "Təkamül" Tərcümə Mərkəzinin Yasamal rayonu ərazisində yerləşən ofisində axtarış apariblar.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 115 (6143) 28 may 2015

## İqtidarda vurulma növbəsini gözləyənlərin şok "xilas planı"

**"Beynəlxalq Bank işi" ilə bağlı biznesmenlərin həbsi ölkə gündəminin əsas mövzusu olaraq qalmaqdadır. Prezidentin yanğınla bağlı son müşavirədə təkcə bu hadisə ilə bağlı deyil, dövlət bankının əmlakını mənimsəməkdə günahı olanların da cəzadan yaxa qurtarmayacağını deməsi məmur-oliqarxların qorxusunu daha da artırıb. Yalnız bəyanatlar və aksiyalar üçün meriyaya müraciət etməklə varlığını qoruyan müxalifətin siyasi səhnədə də təsirini tam itirməsi bütün diqqətləri hakimiyyət daxilindəki "suçlulara" yönəldib.**



# Məmur-oliqarxlar müxalifətdən kömək istəyib - sensasiya!

## Müxalifət liderləri gizlicə bir araya toplanıb nələri müzakirə ediblər?; bəzi dairələr illərdir "radikallar" və "dövlət çevrilişi" iddiasını qabartmaqla öz əhəmiyyətini az qala "gözə soxur", hakimiyyətə sadiqliklərini əks düşərgə liderlərini hədəf almaqla sübut edirdilər; indi də o vəziyyəti yaratmaq istəyirlər ki...

Adətən bu kimi dövlət səviyyəsində baş verən qalmaqallı hadisələrdə diqqəti yayındırmaq üçün "daxili düşmən" axtarışına baş vurulur, hakimiyyət mediası və iqtidarın müəyyən adamlarını önə verib müxalif liderlərini "uğursuzluğa sevinməkdə" hətta "dövlətə qarşı" çıxmaqda günahlandırırdılar. Beləliklə, "radikal müxalifət" faktoru qabardılmaqla bəzi dairələr öz əhəmiyyətini az qala "gözə soxur", hakimiyyətə sadiqliklərini liderləri hədəf almaqla sübut edirdilər. Amma indi vəziyyət çox fərqlidir. Ortada və hədəfdə məmur-oliqarx təbəqədir.

"Yeni Musavat"a kifayət qədər mötəbər mənbədən daxil olan xəbərə görə, son günlər müxalif düşərgədə maraqlı proseslər başlayıb. Resursları kifayət qədər zəifləmiş, dağılmış və daha çox daxili çəkişmələrlə məşğul olan ölkə müxalifətində canlanma yaranıb. Prinsipcə, bu prosesdə qeyr-adi heç nə axtarmamaq da olardı, çünki məntiqlə hakimiyyət daxilində baş verən olaylar, yaranmış siyasi şərait müxalifəti hərəkətə gətirməyə səbəb ola bilər. Amma mənbəmiz iddia edir ki, bu yalnız aysberqin görünən hissəsidir, ortada daha ciddi hədəflər, daha doğrusu, maraqlar var.

"Yeni Müsavat"a daxil olan məlumatda deyilir ki, ölkəni silkələyən Beynəlxalq Bankdakı yüz milyonlarla manatlıq korrupsiya sxeminin aşkarlanması, iş adamlarının və məmurların kütləvi həbs dalğası nəticəsində yaranmış siyasi şərait bir neçə müxalifət liderlərinin toplantısında müzakirə edilib. Xəbərin ilginc tərəfi budur ki, bu toplantıda son illərdə münasibətləri kifayət qədər gərgin olan və görüşmələri hətta ağla belə gəlməyən siyasi liderlər iştirak edib. Məqsəd isə yuxarıda sadalanan hadisələrlə əlaqədar fəal hərəkətlərə keçilməsi məsələsinin mümkünlüyü və bu istiqamətdə konkret addımların atılması olub.

Mənbəmizin dediyinə görə, müzakirələrdə iki kəskin fərqli yanaşma meydana çıxıb. Bunlardan biri hadisələrin fors-mojor kimi dəyərləndirilməsi və bunlardan istifadə edərək iqtidara qarşı fəal, təsirli addımların atılmasına başlamaqdan ibarətdir. Bu istiqamətdə ilkin addım olaraq bu gün passiv mövqe tutan bəzi ictimai əhəmiyyətli şəxslərin də iştirakı ilə müxalifətin birliyinin yaradılmasının elan olunması təklif edilib. Təklifə görə, birliyin elan olunmasından sonra konkret hədəflər müəyyənləşməli və hakimiyyətin istefası tələbi ilə kütləvi aksiyalar başlanmalıdır. Həmin mövqenin tərəfdarları əsaslandırmağa çalışıblar ki, xaricin ciddi təzyiqi altında olan, həmçinin ciddi maliyyə-iqtisadi problemlərlə üzləşmiş hakimiyyət bu problemləri aradan qaldıra bilməyəcək. İddia olunub ki, sadalanan problemləri həll edə bilməyən iqtidarda siyasi böhran yetişəcək və parlament seçkilərinədək (bu ilin noyabrında) pik həddə çatacaq.

Lakin mənbəmizin dediyinə görə, müzakirələrdə buna qarşı da kəskin mövqe irəli sürülüb. Belə ki, əks mövqe tərəfdarlarına görə, müxalifətin hətta birləşdikdən sonra da ortaya qoya biləcəyi ümumi gücə ictimai fəallıq da əlavə olunsa belə, inqilabi siyasi dəyişikliklərə qadir qüvvə formalaşa bilməyəcək. Xarici dəstək barədə deyilənlərin daha çox virtual xarakter daşıdığı və Qərbin ölkədə hakimiyyət dəyişikliyi planını sübut edəcək real əlamətlər olmadığı qeyd edilib. Üstəlik, o da vurğulanıb ki, indiki situasiyada müxalifətin birləşməsi və fəal hərəkətlərə keçməsi mənfi nəticələrə gətirib çıxaracaq. Belə ki, əvvəllər də olduğu kimi, müxalifətin fəallaşması hakim təbəqənin toparlanmasına və ortaq təhlükə əleyhinə - "radikallara" qarşı birləşməsinə səbəb olacaq. Bu vəziyyətdə yenidən SOS siqnalı veriləcək, suç içində olan məmur-oliqarxlar hamını "prezidentin ətrafından sıx birləşməyə" çağıracaq, düşərgənin daha da fəallaşması baş verdikdə isə müxalifətə növbəti zərbələr vurulacaq. Beləliklə də, hakim düşərgədə gözlənilən həbslər, istefalar, islahatlar, kadr dəyişiklikləri prosesi dayanacaqdır, oliqarxiya "daxili düşmənə" qarşı birləşərək öz əhəmiyyətlərini bir daha prezident İlham Əliyevə göstərməyə çalışacaq. Mümkündür ki, müxalif düşərgədə fəallıq daha da artacağı təqdirdə hədəfdə olan, gözdən düşmüş məmurlar yenə də "Qərbin Azərbaycanda çevriliş" planları barədə şişirdilmiş informasiyaların ötürülməsinə başlayacaq. Hazırkı prosesin davam etməsi halında isə "təmizləmənin" daha ciddi fiqurlara keçməsi, ümumilikdə isə iqtidarda mövcud status-kvonun dəyişdirilməsi gözlənilir. Odur ki, ikinci mövqe tərəfdarları prosesin təbii axarına mane olmamaq və "sakit oturub" gözləməyi lazım biliblər.

**Qaynağımız bu görüşün ən sensasion tərəfi barədə də məlumat verib.** "Həmin müzakirədə müxalifətin fəallaşması ideyasının sosial sifarişlə yanaşı, yüksək vəzifəli məmurlardan gəldiyinə dair faktlar da səsləndirilib. Bəzi müxalifət liderləri oliqarxların kömək vədləri barədə danışaraq bundan istifadə etməyi təklif ediblər. Digər liderlər isə deyiblər ki, vəzifəli məmurlardan gələn bu təklif daha çox tələyə bənzəyir və prezidentə, sadəcə, təzyiq göstərə bilmək, həbslərdən qorunmaq üçün müxalifətdən istifadə etmək məqsədi daşıyır" deyə, mənbə bildirib. Qeyd olunub ki, müzakirədə bir çoxları hadisələrin təbii gedişinə mane ola biləcək hərəkətlərdən çəkinmək mövqeyinin daha doğru olduğuna tərəfdar çıxıb, hətta bəziləri İlham Əliyevə bu məsələdə dolayısı dəstək vermək təklifləri ilə çıxış ediblər. Odur ki, müzakirələrdə hələlik vahid mövqe razılaşdırmaq mümkün olmayıb.

❑ **"Yeni Müsavat"**

# Həbs olunan oliqarxlar müxalifətə keçərsə...

## Partiya sədrləri bu ehtimal barədə nə deyir?


Arif Hacılı


İqbal Ağazadə


Mirmahmud Mirəlioğlu


Sərdar Cəlaloğlu

**Son ayların ən səs-küylü siyasi hadisələrindən biri oliqarxların "maliyyə xəyanəti" ittihamı ilə həbs edilməsi oldu. Bəs görəsən, həbs və istintaqa cəlb olunmaları səbəbindən hakimiyyətdən narazı düşən şəxslər müxalif düşərgəyə keçə bilərmi? Buna hazırda həbsdə olan keçmiş səhiyyə naziri Əli İnsanovu misal çəkmək olar. Belə ki, vaxtilə iqtidar komandasında təmsil olunan bu şəxs sonradan həbs edildiyi və əmlakı müsadirə olunduğu üçün müxalif mövqe sərgiləməyə başladı. O hər hansı bir müxalifət partiyasına üzv olmasa da, hazırkı iqtidara qarşı sərt mövqeyində qalır.**

Belə olduğu təqdirdə eyni aqibətlə üzləşən oliqarxların müxalifətə keçmə ehtimalı nə dərəcədə yüksəkdir? Əgər onlar bu addımı atsalar, bu, ölkənin nüfuzlu müxalifət partiyaları tərəfindən necə qarşılanar?

"Yeni Müsavat" bu suallara aydınlıq gətirmək üçün bir neçə partiya sədri ilə əlaqə saxlayıb.

**Sualımızı cavablandıran Müsavat başqanı Arif Hacılı bildirdi ki, partiyaya üzv qəbul edilərkən onların şəxsi keyfiyyətləri və Müsavat ideyalarına sadiqliyi əsas götürülür:** "Müsavat Partiyasına qəbulu partiyanın özəkləri, rayon təşkilatları həyata keçirir. Yalnız tanınmış adamlar Divan vasitəsilə qəbul edilir. Həbs olunanların şəxsi keyfiyyətlərinə, onların Müsavat Partiyasına münasibətlərinə bələd deyiləm. Bu səbəbdən bu haqda fikir səsləndirməyim düzgün olmazdı".

**KXCP sədri Mirmahmud Mirəlioğlu qeyd etdi ki, Azərbaycan təcrübəsində oliqarxların müxalifətə qatılma ehtimalı sıfıra bərabərdir:** "Biz onların əvəzinə danışa bilmərik. Əgər onlar nə zamansa belə bir seçim etsələr, bu haqda münasibət bildirmək olar. Azərbaycan təcrübəsində həbs olunan hansısa oliqarxın müxalifətə keçməsi təcrübəsi yoxdur".

**Ümid Partiyasının sədri İqbal Ağazadənin fikrincə, hər bir vətəndaşın partiyaya üzv olmaq hüququ var:** "Əgər belə bir müraciət olsa, biz bunu müzakirə edərik. Partiyaya qəbul nizamnamə ilə tənzimlənir. Ancaq bunu demək olmaz ki, onlar müxalifətə üz tutacaqlar. Narazı olsalar belə bu, müxalifətə qatılmaq demək deyil".

**ADP sədri Sərdar Cəlaloğlu isə "maliyyə xəyanəti" ittihamı ilə həbs olunan oliqarxları müxalifətə layiq bilmədi:** "Bu insanlar müxalif təbəqəyə çevrilmirlər. Onların narazılıq etmək hüququ da yoxdur. Onlar bu hökumətin yaratdığı imkanlardan sui-istifadə edib, dövlət əmlakını dağıdıblar. Heç zaman ağıllarına da gəlməz ki, müxalifətə qatılsınlar. Digər tərəfdən, xalqın əmlakını dağıdan insan nəyə görə müxalifət partiyasına qəbul olunmalıdır ki? Biz bu günə qədər elə onlara qarşı mübarizə aparmışıq. Belə çıxır ki, onlar işləri yaxşı gedəndə iqtidar olurlar, çətinə düşəndə müxalifət? Dövlətçiliyə, xalqa xəyanət eləmiş, onun əmlakını talayan insanların müxalifət sıralarına qatılması əslində müxalifətin iflası deməkdir".

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa həbsdəki oliqarxların müxalifətə qoşulmaq ehtimalını istisna etdi:** "Yalnız praqmatik maraq güdən iş adamlarının müxalifətə qoşulması ehtimalı demək olar ki, yoxdur. Hakimiyyətin bu insanlara total nəzarət imkanları var. Bu addım onların fəaliyyətinə qarşı daha kəskin addımların atılmasına, yaxınlarına sərt tədbirlərin görülməsinə gətirib çıxara bilər. İkinci bir tərəfdən, bu insanların böyük əksəriyyəti düşüncədə müxalifəti qəbul etməyən şəxslərdir. Onlar maddi maraqlar zəminində iqtidarda böyük layihələrin içində yer alıblar. Ona görə də onların müxalifətə qoşula biləcəyi inandırıcı deyil. Yalnız həbs olunandan sonra hakimiyyətə münasibətləri dəyişə bilər. Ancaq mən müxalifətə qatılmaq ehtimalını istisna edirəm".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 115 (6143) 28 may 2015

**Xəbər verdiyimiz kimi Binəqədi rayonunda yanan binanın təmiri "Azəraqrartikinti" ASC-yə həvalə olunub. ASC-nin rəhbəri, Milli Məclisin deputatı Ağalar Vəliyev "Yeni Müsavat"ın suallarını cavablandırarkən maraqlı məqamlar üzə çıxıb. Məlum olub ki, deputat gəlir gətirən ASC-nin təsisçisidir. Deputatın özü bu fəaliyyətinin qanunsuz olmadığını deyir. Bəs qanun nə deyir?**

# Yanan binanı təmir edən şirkətin deputat rəhbərinin fəaliyyəti qanunsuz elan olundu

## Nazim Məmmədov: "Ağalar Vəliyevin Milli Məclis üzvü olaraq ASC-yə rəhbərlik etməsi qanunların kobud şəkildə pozulmasıdır"

*Bu və digər suallarla sabiq deputat, iqtisadçı ekspert Nazim Məmmədova müraciət etdik. Sabiq deputatın sualımıza cavabı belə oldu:*

"Deputat İlyas İsmayılov dəfələrlə Milli Məclis üzvlərinin statusu ilə bir araya sığmayan fəaliyyət göstərməleri məsələsini qaldırıb. Deputat fəaliyyəti haqda qanuna, konstitusiyaya zidd olan fəaliyyətlə deputatın məşğul olması qanunsuzdur. Bu gün Milli Məclisdə 40 nəfər deputat var ki, müxtəlif institutların direktoru, universitet rektoru, dövlət şirkətlərinin rəhbəri, ASC sədri vəzifələrini daşıyırlar. Bu adamlar bizneslərinin başında duraraq qanunu pozurlar. Konstitusiya Məhkəməsi Mərkəzi Seçki Komissiyasının yekun protokolunu təsdiq etdikdən sonra qanunvericiliyin tələbinə görə kommersiya fəaliyyəti göstərən, digər ödənişli vəzifələr daşıyan şəxslər həmin vəzifədən azad olunmaları haqda əmrin surətini Mərkəzi Seçki Komissiyasına, Konstitusiya Məhkəməsinə təqdim etməlidirlər. Bu, onların üzərinə qanunun qoyduğu öhdəlikdir".

**N.Məmmədov 2005-ci ildə deputat seçildikdən sonra qanuna müvafiq olaraq "Ataxan Dəmir Sənaye" MMC-nin təsisçiliyindən ailə üzvünün xeyrinə imtina edib və bu haqda əmrin surətini müvafiq qurumlara təqdim edib:** "5 il ərzində müəssisələrimin həndəvərinə belə getmədim. Fəaliyyətim deputat ofisi ilə bağlı oldu. Güman edirəm ki, bu gün Milli Məclisdə oturan 40 deputat qanunu bilmir. MSK, Konstitusiya Məhkəməsi, deputat etikasına nəzarət edən komissiya, Milli Məclis rəhbərliyi bu məsələyə dırnaqarası baxır. Beləliklə, nümunə olmalı şəxslər qanununun müddəalarını pozurlar, çox pis nümunə göstərirlər. Yanan bina ilə bağlı deputatın jurnalistlərin qarşısına çıxıb binanın qiymətləndirməsindən, ora keçirilən baxışdan danışması birbaşa biznes fəaliyyəti ilə məşğul olmasının sübutudur".

Binadakı faciədən sonra məlum oldu ki, poliuretan məhsuluna Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin AzTEST mərkəzi sertifikat verib. Məhsul "Dərnəgül Boru Zavodu"nun laboratoriyasında sınaqdan keçirilib. Bu halda iş icraçısının suçu nə dərəcədədir?

**N.Məmmədov deyir ki, iş icraçısının həbsi onun üçün gözlənilməz olub:** "Məncə, digər insanları hədəfdən yayındırmaq məqsədilə iş icraçısının həbsi reallaşdı və cənab prezidentə bu haqda raport verildi. Əslində istintaq aparılmalı və əgər istintaq zamanı müəyyən olunsa ki, iş icraçısı bilərəkdən keyfiyyətsiz materialdan istifadə edib, bu halda onun həbsi ədalət prinsiplərinə söykənərdi. Axı həmin sertifikatı verən dövlət qurumudur, iş icraçısı deyil. Bu sertifikatın saxta olması haqda da ortada fakt yoxdur. Əgər saxtadırsa, bunu ortaya qoymalıdırlar. Saxta deyilsə, bunun izahatı verilməlidir. Bilinməlidir ki, həmin materiala rəy hansı əsaslarla verilib, kim verib? İstintaq bu məsələdən başlamalı idi. O sertifikatı verən adamlar istintaqa cəlb olunmalıdır, nəinki iş icraçısı".

**Deputat Ağalar Vəliyev qəzetimizə müsahibəsində deyib ki, icraçı sifarişçiyə sertifikat təqdim etməlidir ki, bu material yanğına davamlıdır. Heç bir icra başçısının laboratoriyası yoxdur ki, icraçının təqdim etdiyi sertifikata inanmasın. Sual yaranır - məgər iş icraçısının laboratoriyası var?**

N.Məmmədov bu suala belə cavab verdi: "İş icraçısı istehsalçıdan alır. İstehsalçıya da həmin malın keyfiyyətli olması haqda sertifikatı dövlət qurumu verirsə, iş icraçısının məsuliyyətindən söhbət gedə bilməz. Məgər siz mağazadan aldığınız malın keyfiyyətli və ya keyfiyyətsiz olmasını evinizdə quraşdırdığınız laboratoriyada yoxlayırsınız? Əlbəttə ki, yox! Çünki malların keyfiyyətli olmasını təsdiqləyən, bundan sonra satışa çıxarılmasına icazə verən dövlət qurumu var. Keyfiyyətsiz mal bazara çıxıbsa, buna dövlət qurumu sertifikat veribsə, iş icraçısının məsuliyyəti sadəcə yoxdur. Çünki həmin malın adi gözlə keyfiyyətli və ya keyfiyyətsiz, oda davamlı və ya əksinə olmasını müəyyən etmək vəzifəsi iş icraçısının, istehlakçının vəzifəsi deyil!"



**Maliyyə Nazirliyi yanan bina ilə bağlı sorğumuza cavab hazırlayır; Baş Prokurorluq təxribat izini araşdırır**

***

**15 nəfərin ölümünə, 56 nəfərin xəsarət almasına gətirib çıxaran yanğından sonra əcaib mənzərə ortaya çıxıb. Binanı üzləyən şirkətə müvafiq qurumların bu fəaliyyətlə məşğul olmasına icazə verilmədiyi aydınlaşıb. Bəs binanın üzlənməsinə dövlət büdcəsindən vəsait ayrılıbmı?**

**"Yeni Müsavat" bu və digər suallara aydınlıq gətirilməsi üçün Maliyyə Nazirliyinə informasiya sorğusu yollayıb.**

**Həmin sorğunun məzmununu təqdim edirik:**

- Bildiyiniz kimi mayın 19-da Binəqədi rayonunda poliuretan üzlüklü bina yandı, nəticədə 15 nəfər dünyasını dəyişdi, 56 nəfər isə xəsarət aldı. Prezident yanında Dövlət Komissiyasının iclasında binanın üzlənməsi ilə bağlı müxtəlif fikirlər səsləndirildi. Binanın daha keyfiyyətsiz materialla üzlənməsi haqda da danışıldı.

Sizdən xahiş edirik ki, aşağıdakı suallarımıza aydınlıq gətirəsiz:

1. Binəqədi rayonunda binaların üzlənməsinə dövlət büdcəsindən 2015-ci ilə qədər hər il nə qədər vəsait ayrılıb?
2. Vəsaitin təyinatı üzrə xərclənib-xərclənməməsinin auditi hansı nəticələr verib?
3. Ayrılmış vəsaitdən bilavasitə yanmış binanın üzlənməsinə nə qədər vəsait xərclənib?
4. Həmin binaya ayrılan vəsaitin təyinatı üzrə xərclənib-xərclənməməsinin auditi həyata keçirilibmi?
5. Keçirilibsə, nəticəsi necə olub?

Maliyyə Nazirliyinin mətbuat katibi, informasiya azadlığı üzrə məsul şəxs Mais Piriyev müvafiq araşdırmalardan sonra sorğumuza mayın 29-da cavab verəcəklərini bildirdi.

***

Bundan başqa, yanan binada yanğının qəsdən törədilməsi haqda da fikirlər səslənir. Baş Prokurorluğun mətbuat xidmətinə də sorğu ilə müraciət etmişik. Xidmət rəhbəri Eldar Sultanov bildirdi ki, iş üzrə istintaq-əməliyyat qrupu hadisənin qəsdən törədilməsi fərziyyəsi ətrafında da zəruri və təxirəsalınmaz istintaq hərəkətləri, əməliyyat-axtarış tədbirlərini həyata keçirir.

❑ E.MƏMMƏDƏLİYEV

# Müsavat həbs edilən iş adamlarına işgəncə verməməyə çağırdı

**Müsavat Partiyası son vaxtlar həbs olunan iş adamları və digər şəxslərə saxlandıqları təcridxanalarda işgəncə verilməsi barədə yayılan məlumatlara dair bəyanat yayıb. Bəyanatda bildirilir ki, son vaxtlar həbs olunan iş adamlarına və digər şəxslərə saxlandıqları təcridxanalarda işgəncə verilməsi barədə məlumatlar yayılır. Həbs olunanlardan birinin bu barədə Respublika Prokurorluğuna müraciət etdiyi də deyilir. Törətdiyi hər hansı əmələ görə təqsirləndirilən şəxslərin keyfiyyətli müdafiə, insani şəraitdə saxlanma hüququ vardır: "İstintaq altında olan təqsirləndirilən şəxslərin işgəncəyə məruz qalması nəinki yolverilməzdir, həm də ağır cinayətdir.**

İşgəncə faktları Azərbaycan Konstitusiyasının və ölkəmizin qoşulduğu beynəlxalq sazişlərin kobud surətdə pozulmasıdır. Müsavat Partiyası təcridxanalarda işgəncə hallarının son zamanlar daha da artmasından narahatlığını bildirir, Azərbaycan hakimiyyətindən bu barədə yayılan məlumatların ciddi yoxlanılmasını, belə halların qarşısının alınması üçün təsirli tədbirlər görülməsini, bu işdə günahı olan vəzifəli şəxslərin cəzalandırılmasını tələb edir".

MÜSAVAT

**Xatırladaq ki, bu yaxınlarda həbs edilən "PNN Group" şirkətinin sahibi Nizami Piriyev mayın 25-də virtualaz.org saytına məktub göndərək bildirib ki, artıq bir neçə gündür döyülür və qeyri-insani rəftarla üz-üzədir:** "Cümə günündən etibarən məni hər gün bir neçə dəfə döyürlər. Mən vəkilim Muxtar Mustafayevdən bununla bağlı Baş Prokurorluğa və MTN-ə müraciət etməyi xahiş etmişəm".

❑ E.SEYİDAĞA



# Bakıda və bölgələrdə hərbi yürüş keçiriləcək

**Mayın 28-də Respublika Günü münasibətilə Bakı Qarnizonu qoşunlarının iştirakı ilə saat 12.00-dan etibarən şəhərin müxtəlif istiqamətlərində 10 marşrut üzrə hərbi qulluqçuların nizami yürüşü keçiriləcək.**

Müdafiə Nazirliyinin rəsmi saytı bildirir ki, həmin gün Naxçıvan, Gəncə, Şəmkir, Sumqayıt, Bərdə, Beyləqan, Lənkəran, Horadiz və Qusar şəhərlərində yerləşən hərbi hissələrin şəxsi heyətinin də nizami keçidi təşkil ediləcək.

Bundan başqa, mayın 28-də saat 17:00-dan 19:00-dək Bakı şəhərinin müxtəlif yerlərində Silahlı Qüvvələrin orkestrlərinin çıxışları olacaq.

Orkestrlər müəyyən olunmuş 6 nöqtədə çıxış edəcəklər:

- Fəvvarələr meydanı;
- Dənizkənarı Milli Park (Azneft meydanının qarşısında-kı Dövlət Bayrağının yanında);
- Dənizkənarı Milli Park (Azadlıq meydanı qarşısında);
- Əhmədli qəsəbəsində yerləşən Heydər Əliyev adına park;
- Zərifə Əliyeva adına park;
- Zabitlər parkı.

Həmin gün Naxçıvan, Gəncə, Şəmkir, Sumqayıt, Bərdə, Beyləqan, Lənkəran və Qusar şəhərlərində də Silahlı Qüvvələrin orkestrlərinin nümunəvi çıxışları olacaq.

YENİ MÜSAVAT
N 115 (6143) 28 may 2015

**Mayın 27-də "Kapital Bank" ASC-nin səhmdarlarının ümumi yığıncağı keçirilib. Bu barədə fins.az məlumat yayıb. Bankdan sayta verilən məlumata görə, yığıncaqda bankın Müşahidə Şurasının (MŞ) tərkibinə dəyişiklik edilib. MŞ-nin sədri Mircamal Paşayev icraçı direktor olduğu "Paşa Holding" ASC-də işinin çox olması ilə əlaqədar istefa verib.**




# Daha bir nəhəng bankda şübhəli istefa

## "Kapital Bank"ın rəhbərliyi dəyişdirildi; Mircamal Paşayevi Cəlal Qasımov əvəzlədi; Beynəlxalq Bankla bağlı baş verən proseslər təkrarlana bilərmi?

Onun yerinə bir qədər əvvəl holdinqin Bank Qrupunun rəhbəri təyin edilmiş Cəlal Qasımov seçilib. Nəzərə çatdıraq ki, Cəlal Qasımov Bank Qrupunun rəhbəri postuna mayın əvvəllərində gətirilmişdi. Ondan əvvəl isə "Unibank"ın icraçı direktoru vəzifəsində çalışıb. C.Qasımov 2013-cü ilin mart ayında "Unibank"ın icraçı direktoru təyin olunub. O, bu vəzifədə 2015-ci ilin aprel ayına qədər çalışıb...

"Kapital Bank" Azərbaycanda ilk kassası 1874-cü ildə yaradılan Əmanət Bankın hüquqi varisidir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 fevral 2000-ci il tarixli sərəncamı ilə üç dövlət səhmdar-kommersiya bankının - Aqrar-Sənaye, Sənaye-İnvestisiya və Əmanət banklarının sağlam aktiv və öhdəliklərinin birləşdirilməsi nəticəsində Birləşmiş Universal Səhmdar Bankı (BUSBank) yaradılıb. 29 dekabr 2004-cü il tarixində bank səhmdarlarının növbədənkənar iclasında BUS-Bank adının dəyişdirilməsi və Banka "Kapital Bank" adının verilməsi qərara alınıb. Hazırda "Kapital Bank" ASC-nin səhmlərinin 99.84%-i "Paşa Holdinq"ə aiddir. Bankın nizamnamə kapitalı 185 mln. AZN-dir. 89 filialı və 5 şöbəsi ilə "Kapital Bank" Azərbaycanda ən böyük xidmət şəbəkəsinə malik maliyyə qurumudur. 2 milyondan çox aktiv ödəniş kartlarının sayı ilə də bank Azərbaycanda liderdir. Universal bank olan "Kapital Bank" həm fiziki, həm də korporativ müştərilərə xidmət göstərir. Bank tərəfindən 2 milyondan çox fiziki və 22 mindən çox korporativ müştəriyə xidmət göstərilir. Eyni zamanda "Kapital Bank" dövlətin həyata keçirdiyi bir sıra sosial proqramlarda da yaxından iştirak edir.

"Kapital Bank" ASC-nin Müşahidə Şurasının 10.06.2013-cü il tarixli qərarına əsasən Rövşən Şamil oğlu Allahverdiyev bankın İdarə Heyətinin sədri vəzifəsinə təyin edilib.

Nəzərə çatdıraq ki, Mircamal Paşayev Azərbaycanın ABŞ-dakı sabiq səfiri, hazırda Diplomatiya Akademiyasının rektoru olan Hafiz Paşayevin oğludur.

"Kapital Bank"ın Müşahidə Şurasının rəhbərinin istefa verməsi həm də ona görə diqqət çəkir ki, Beynəlxalq Bankla bağlı baş verən proseslər də məhz bankın İdarə Heyətinin sədri Cahangir Hacıyevin istefasından sonra başlamışdı. Düzdür, bəlli səbəblərdən burada paralellər aparmaq bir qədər mümkünsüz görünə bilər, ancaq ortada olan bir fakt var; ölkə prezidenti İlham Əliyev ölkənin maliyyə qurumlarında, bank sektorundakı vəziyyətə çox ciddi nəzarət edir. Belə ehtimallar da var ki, müəyyən daxili araşdırmalar zamanı "Kapital Bank"da da müəyyən qüsurlar aşkarlanıb və bu bankın rəhbərliyi təftiş edilib. Bu, neft gəlirlərinin azalmasından sonra ölkədə maliyyə ilə bağlı ortaya çıxan maxinasiya faktlarına görə prezidentin kimsəyə güzəşt etməməsinin göstəricisi kimi də səciyyələndirilə bilər.

Ekspertlər bildirirlər ki, Beynəlxalq Bankdan sonra "Kapital Bank"da da araşdırmaların, təftişin aparılacağı gözlənilən idi. Çünki əgər Beynəlxalq Bankda dövlətin 50,2 faiz payı varsa, "Kapital Bank" da əksər kommunal, vergi, cərimə ödəmələrinin həyata keçirildi bankdır. Yəni dövlətin xeyli faiz büdcə yığımı bu bank vasitəsilə həyata keçirilir. Ona görə də dövlət təbii ki, bu bankı da diqqətdən kənar tuta bilməzdi.

Eyni zamanda ekspertlər hesab edir ki, Beynəlxalq Bankla müqayisədə "Kapital Bank"da proseslər o qədər də sərt üsullarla getməyə bilər. Ancaq bu bankda və müəyyən şəxslərin vasitəsilə burada maxinasiyalara yol verən sahibkarların cəzalandırılacağı istisna deyil.

❑ T.ƏHMƏDLİ

# İŞİD qədər təhlükəli məmurlarımız...



**Kənan RÖVŞƏNOĞLU**

**Bakıda baş verən bina yanğını ictimai və xəbər gündəmini 180 dərəcə dəyişdi. İndi bunu isbat etməyə gərək yoxdur, iqtidar, müxalifət, müstəqil media və ən mühümü, hazırda ictimai rəyi müəyyən edən sosial şəbəkələr Bakıda yanan bina və onun ardınca gündəmə gələn keyfiyyətsiz üzlükləri, həmçinin məmur özbaşınalıqları, büdcədən oğurlanan milyonlar mövzularına köklənib. Əslində təbiidir, çünki indi hər kəs təhlükəni birbaşa öz evində, gözləri qarşısında, ən nəhayət, insan itkisi ilə açıq şəkildə müşahidə etdi. Yəni dəhşət göz qabağındadır.**

Ancaq təxminən 3 ay əvvələ qədər vəziyyət xeyli dərəcədə fərqli idi. Azərbaycan insanı gecəni Yaxın Şərqdə qanlı savaş, dəhşət xəbərləri ilə yol salıb səhəri eyni xəbərlərlə açırdı. İŞİD, Suriya və İraqdakı, eləcə də bütün regiona yayılmış dəhşət çatan radikal, qeyri-nizami silahlı qruplar, mühakiməsiz edamlar, qəddarlıq, zorakılıq, təcavüzlər, baş kəsmələr, diri-diri insan yandırma və sair. Bütün dünya kimi bizim də gündəmimizin əsas mövzusunu bu xəbərlər təşkil edirdi.

Üstəlik, Azərbaycan bir müsəlman ölkəsi olaraq bu dəhşətləri qiyabi də olsa yaşayırdı. Ölkədən Suriyaya savaşa gedənlərin yaratdığı *(bəlkə də bilərəkdən yaradılmış - K.R.)* qorxu, təhlükənin Azərbaycana da sıçrayacağı ilə bağlı xəbərdarlıq bəyanatları fonunda ictimai rəyin "İŞİD xəbərləri"nə köklənməsi tamamilə təbii idi.

Ancaq ilk olaraq fevralın sonu martın əvvəlində devalvasiyadan sonra gündəm nəzərəçarpacaq dərəcədə dəyişdi. Nəzərlər ölkə daxilinə yönəldi. Bir qədər sonra oliqarxların həbsləri və nəhayət, son olaraq Binəqədidə bina yanğını ilə mənzərə demək olar ki, tamamlandı və ölkə ictimai rəyi bütövlükdə daxildəki hadisələrə kökləndi. İctimai rəyin, medianın sosial şəbəkələrə yansıyan reaksiyasından da göründüyü kimi, cəmiyyət indi ölkə daxilindəki problemlərə köklənib. Yanan bina, bundan sonra gündəmə gələn tezalışan üzlüklər mövzusu cəmiyyət üçün daha təhlükəli məsələyə çevrilib.

Və birdən-birə aydın oldu ki, əslində daha real və ciddi təhlükə heç də Yaxın Şərqdəki İŞİD deyil, təhlükə daha yaxındadır, yəni Azərbaycanın məmurlarıdır. Çünki indi necə deyərlər, təhlükə daha realdır, insanları Bakının mərkəzində, evlərində yandırır. Nəzərə alsaq ki, tezalışan materiallarla üzlənmiş binaların sayı təkcə Bakıda yüzlərlədir, o zaman təhlükənin miqyası da aydın olur. Azərbaycanın bəzi məmurları ölkə vətəndaşları üçün təhlükəlilik baxımından İŞİD-i önləyib. Buna görə də indi hər kəs daxildəki təhlükəni danışır, diqqətini Bakıdakı real təhlükə mənbələrinə yönəldib.

Əlbəttə, ritorik görünsə də, əslində təhlükə heç də tezalışan üzlüklər deyil, bu üzlüklərin hazırlanması, istifadəsi, binalara vurulmasına şərait yaradan, göz yuman məmurlardır. Son olaylar göstərdi ki, Azərbaycan məmurları əsl təhlükənin qaynağıdırlar. Məsuliyyətsiz idarəçilik, rüşvətxorluq, saxta sənədlərin verilməsi, rüşvət əsasında nəzarətin təmin olunmaması son nəticədə gözlərimiz önündə böyük faciənin yaşanmasına səbəb oldu.

Xətai rayonundakı yanan bina məlum materialdan xilas olmaq üçün siqnal oldu. Əlbəttə, yaxşı haldır, binaların üzlüklərini sökürlər, Bakı növbəti üzlük yanğını riskindən qurtulacaq. Amma bəs digər məsələlər? Axı saxta sənədlər yalnız keyfiyyətsiz bina üzlükləri üçün verilməyib. Keyfiyyətsiz, yarıtmaz, korrupsioner məmur əməlləri hər sahədədir. Deməli, narahatlıq üçün həqiqətən də ciddi əsaslar var. Oxşar məmur fəaliyyəti keyfiyyətsiz binalar, körpülər, liftlər və başqa sadalaya bilmədiyim neçə-neçə sahələrə verilib. Təhlükənin miqyası xeyli böyükdür, onun bir ünvanı var. Bu vəziyyət bir gerçəyi bir daha göz önünə gətirir: korrupsiya, rüşvətxorluq İŞİD, əl-Qaidə və bu tip terror təşkilatlarından daha təhlükəlidir. Yarıtmaz məmurlar daha böyük bəlaların səbəbkarıdır. Çünki yuxarıda qeyd olunan, o cümlədən hətta terror, kütləvi cinayətlərin də çox zaman səbəbləri gedib bu amilə dayanır.

# Milli Şuradan 10 min adam vədi...

## Müsavat 30 may mitinqində iştirak etməyəcək; qurumun rəhbərləri 30 may mitinqi ilə bağlı çağırış ediblər

**Mayın 30-da Milli Şura "Yalana və talana son!" şüarı ilə mitinq keçirəcək. Mitinqə Bakı Şəhər İcra Hakimiyyəti razılıq verib. Saat 15.00-dan 17.00-dək Bakı şəhəri, Yasamal rayonu, M.Seyidov küçəsi, 3155-ci məhəllədə yerləşən Yasamal Rayon İdman-Sağlamlıq Kompleksinin stadionunda (keçmiş "Məhsul" stadionu) keçirilməsi nəzərdə tutulan mitinqdə 10 min adamın iştirak edəcəyi AXCP sədrinin müavini Fuad Qəhrəmanlı tərəfindən bəyan edilib. Fuad Qəhrəmanlının sözlərinə görə, mitinqdə əvvəlki şüarlar öz aktuallığını qoruyacaq.**



Bu mitinqdə həmçinin 19 may tarixində Bakı şəhərində binada baş vermiş yanğında həlak olan şəxslərə görə günahı olan şəxslərin tapılıb məsuliyyətə cəlb olunması da tələb olunacaq.

Milli Şuradan kənarda olan aparıcı müxalif partiyalardan Müsavatın 30 may mitinqinə hansısa şəkildə dəstək verib-verməyəcəyinə gəlincə, partiyadan bildirildi ki, Müsavat Divanı bir müddət öncə Milli Şuranın keçirdiyi mitinqdə iştirak etmək məsələsində partiya üzvlərinə sərbəstlik verib. Həmin qərar qüvvədə qalır.

Milli Şuranın sədri Cəmil Həsənli və AXCP sədri Əli Kərimli isə 30 may mitinqi ilə bağlı xalqa müraciət edib. Cəmil Həsənlinin facebook səhifəsindən paylaşdığı müraciətində bildirilir ki, vətənimizin paytaxtını eybəcər vəziyyətə salanlar vətəndaş təpkisi ilə, xalq iradəsi ilə qarşılaşmalıdır. 30 may mitinqi məhz bunun ifadəsi olacaq.

**Müraciətdə 4 gün öncə Bakı Dövlət Universitetini qırmızı diploma bitirmiş əsgər Tapdıq Babaşovun Fövqəladə Hallar Nazirliyinin hərbi hissəsində döyülmə və işgəncə nəticəsində həyatını itirməsindən, siyasi məhbuslardan, korrupsionerlərin azadlıqda gəzməsindən və digər problemlərdən söz açılır:** "Milli Şura olaraq mitinq qərarını biz verdik, onun kütləviliyini siz təmin edin. Gəlin, özünüzü xilas edin, uşaqlarınızı xilas edin, gələcəyinizi xilas edin! Ən nəhayət, hamımız birlikdə yanğın təhlükəsi ilə üzləşmiş vətənimizi xilas edək!"...

Əli Kərimli isə xalqa çağırışında bildirib ki, artıq susmaq mümkün olmur, sadəcə, yazıb tənqid etmək kifayət etmir. O qeyd edib ki, yandırılaraq, boğularaq öldürülmüş soydaşlarımızın, körpə balalarımızın qanının batırılmasına, əsl cinayətkarların hələ də işbaşında qalıb meydan sulamasına, büdcə vəsaitlərinin talan edilməsinə, mənasız israfçılığa, dəhşətli kredit faizlərinə, dollarla krediti olan vətəndaşlarımızın ikiqat soyulmasına, korrupsiyaya, monopoliyaya, hüquqsuzluğa, əsgər ölümlərinə, Qarabağ qazilərinin özlərini öldürmə həddinə çatdırılmasına, siyasi məhbusların azad edilməməsinə etiraz etmək üçün meydanlara çıxmaq zamanıdır.

**Müsavat başqanının müavini Elman Fəttah isə bildirib ki, Müsavat Partiyası Milli Şuranın mayın 30-da keçirəcəyi mitinqdə iştirak etməyəcək.**

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 115 (6143) 28 may 2015



# Kül deputatı

Zamin HACI
zaminhaci@gmail.com

"Məbəd özü dağın zirvəsindən görünmürdü, ancaq tüstü və uzun alov dilləri gözə dəyirdi. Ağaclar üzərində saysız qığılcımlar üzürdü, adama elə gəlirdi ki, Kinkakudzi ətrafında qızıl tozundan burulğan qalxmışdır"

**(Yukio Misima, "Qızıl məbəd" romanı)**

**Yanan binanın bizə bir xeyri oldu ki, onun külünü eşələyib içindən təzə bir deputat tapdıq. Bu tapıntının adı Ağalar Vəliyevdir. Məşədi İbadın sözü olmasın, mən "Tarixi-Mətbuat-Şureyi-Amaşov"u yarıya qədər oxumuşam, ilk dəfədir belə deputatın ərazilərimizdə dolaşdığını görürdüm. Doğrudur, deputatın ov arealı haqda məlumatı hələ əldə edə bilməmişik, hansı dairənin, hansı yetimlərin deputatıdır, bunlar elmə məlum deyildir, ancaq hər halda, bunun özü böyük irəliləyişdir.**

Ağalar müəllimin hansısa tikinti briqadası vardır, qanun qayırmaqdan asudə vaxtlarında hamam-tualet remontu ilə də məşqulat edirmiş, böyük təcrübəsinə görə Penoplast prospektində yanan binanın təmirini də ona tapşırıblar. Buna görə Binəqədi rayon zəhmətkeşləri, həmçinin rayon ərazisində məskunlaşmış Şuşa və Laçın qaçqınları adından Ağalar müəllimə dərin minnətdarlığımızı bildiririk. Xüsusi səbəbi yoxdur, sadəcə, bir az yiyəsiz minnətdarlığımız əlimizdə qalmışdı, dedik elə ona hədiyyə edək. Çünki yanan binanın deputatı Rafael Cabrayılova baxanda bu, xeyli tanınmış insandır. Cabrayılovu hərdənbir, seçkidə-zadda televizora çıxardıb söyüş söydürürlər, sonra qış yuxusuna gedir. Nə isə, belə xırda mövzular bizlik deyil.

Sözümün canı odur ki, hər pis işdə bir xeyir də var. Bir üzümüz güləndə, o biri üzümüz ağlamalıdır. Sağ əlin aldığı rüşvəti sol cibə qoymazlar. Əgər Penoplast prospektində o bina yanmasaydı, baş nazirin müavini və fəciə komissiyasının sədri Abid Şərifov jurnalistlərə "Alabala" deməsəydi, biz Mətbuat Şurasının sədri hörmətli Amaşovun epistolyar janrda böyük ustalığından xəbər tutardıqmı? Qətiyyən. Dünənki yazımda da buna toxunmuşam, bildiyiniz kimi, Amaşov hadisədən sonra Şərifova açıq məktub yazmışdır, hazırda o məktubu Moskva Dövlət Universitetində Tolstoyun Dostoyevskiyə məktubundan sonrakı dərsdə uşaqlara öyrədirlər. Məktubun uğurlu əks-sədasını görən Əflatun müəllim başqa orqanlara da açıq məktub yazmışdır. Hələlik onlardan birini əldə etmişəm, qalanları da gəlsin, hörmətli oxuculara çatdıracağam. Amaşovun ikinci açıq məktubu yanan binaya yazılmışdır. **Məktubda deyilir:** "A bina, sən niyə yandın, müstəqilliyimizi niyə gözün götürmür, bizə yazığın gəlmərmi, nə üçün analoqu olmayan iqtisadi inkişafımıza ləkə yaxmaq cəhdində bulundun, indi səni təzədən təmir eləyib penoplastla üzləsək, divarların hirsindən çatlasınmı? Halbuki müstəqilliyimiz üzərində qara buludlar uçarkən möhtərəm prezidentimiz respublikanı xilas etmişdir, bu ülvi arzuya bütün üzsüz binaların üzlü sakinləri qoşulurlar!" Məktub uzundur, qalsın başqa vaxta.

Başqa bir müsbət hadisə odur ki, Avropa Oyunlarının məşəlini müğənni, səhnəmizin primadonnası, ellər anası, Tomris və Natəvan irsinin layiqli davamçısı, Nazpəri xanımın ilhamvericisi İlhamə xanım daşıyacaqdır. Deyilənə görə, məşəl son açılış günündə, baş stadionda havadan, helikopterlə mələk donunda enən İlhamə xanımın əlində olacaqdır. Təxminən Evrovizqon-un açılışında Emin müəllimin səhnəyə enməsi kimi bir şey planlaşdırılır. Ey Afina Pallada, vur məni qəlbimdən alovsaçan oxlarınla! Ya da nizənlə qarnımı deş, qoy oxları dədən Zevs atsın!

Sonda hamınızı 28 May Respublika Günü münasibətiylə təbrik edirəm. O respublikanı quranların bircəciyinin də qəbri hazırda Azərbaycan ərazisində deyil. Elə təkcə bu fakt respublikamızın parlaq keçmişindən və gələcəyindən xəbər verir.




# 4 rayon əvəzinə Avrasiya Birliyinə üzvlük?

## Azərbaycanın quruma daxil olmasının mümkünlüyü yenidən gündəmə gətir; ekspertlərin şərhləri maraqlıdır...

**Xarici işlər naziri Elmar Məmmədyarovun son Moskva səfərində və səfərdən sonra verdiyi açıqlamalar Azərbaycanın Avrasiya Birliyinə daxil olması məsələsinin yenidən gündəmə gəldiyini söyləməyə əsas verib. Nazirin açıqlamalarından belə görünür ki, Bakı Rusiyanın Ermənistanı işğal etdiyi Azərbaycan rayonlarından geri çəkilməyə məcbur etməsinin qarşılığında Avrasiya Birliyinə qoşulmağı mümkün sayır.**

Azərbaycanlı nazirin ölkəmizin bu mövqeyini Moskva səfərində Rusiya hakimiyyətinə çatdırdığı istisna deyil. Rusiyanın isə Azərbaycanı Avrasiya Birliyinə qoşmağa çalışdığı bəllidir. Bəs Azərbaycanın sözügedən birliyə daxil olması onun müstəqilliyi və suverenliyinə hansısa təhlükə yarada bilərmi? Azərbaycanın bir neçə rayonu azad etmək istəyi sonradan onun bütövlükdə dövlət müstəqilliyini zərbə altına gətirə bilərmi?


Ərəstun Oruclu


Razi Nurullayev

**Politoloq Razi Nurullayev bildirdi ki, Azərbaycan heç zaman Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hər hansı bir strateji qərar olmadan Rusiya ilə strateji yaxınlaşmaya üstünlük verə bilməz. Rusiya da hazırda Ermənistanı əzərək Azərbaycanın xeyrinə addım atmaqdan çəkinir:** "Burada bir variant qalır. Ermənistanın özünün də bufer zona kimi saxladığı Dağlıq Qarabağın ətrafındakı işğal olunmuş 7 rayon var. Məhz həmin rayonların Azərbaycana qaytarılması, bunun müqabilində Azərbaycandan zəmanət alınması və Ermənistana təqdim olunması ki, Azərbaycan digər ərazilərlə bağlı hücum əməliyyatları həyata keçirməyəcək. Digər ərazilərin məsələsi danışıq mövzusu olaraq tərəflər arasında davam edəcək. Təbii ki, Ermənistan buna razı deyil. Amma Rusiya strateji maraqlarına görə Azərbaycanı razı salmaq üçün bu variantı reallaşdıra bilər. Hazırda masa üzərində olan variant budur. Bunun müqabilində Rusiyanın Azərbaycandan istəyi Azərbaycanın Avropa Birliyinin "Şərq Tərəfdaşlığı" Proqramına qoşulmaması, bu prosesi kifayət qədər uzatması, Azərbaycanın Avrasiya Birliyinə qoşulmasıdır. Belə düşünürəm ki, Azərbaycan yaxın zamanda olmasa da Avrasiya Birliyinə qoşulmaqla bağlı prosesə başlaya bilər. Bu proses bir neçə il çəkə bilər. Hesab edirəm ki, Azərbaycan orada öncə müşahidəçi status ala və tədbirlərində iştirak edə bilər. Amma bu, o zaman baş verəcək ki, Dağlıq Qarabağla bağlı Rusiyanın mövqeyi dəyişir və Azərbaycana ən azından 4-5 rayon qaytarılır".

**Politoloq xatırlatdı ki, Avrasiya Birliyi də, Avropa Birliyi də dövlətlər birliyidir:** "Avropa Birliyinə daxil olan ölkələr də müəyyən mənada siyasi müstəqilliklərini itirmiş olurlar, müəyyən iqtisadi çərçivələrə sığınmalı olurlar, üzərlərinə demokratiya, azad seçki, insan hüquqları ilə bağlı öhdəliklər götürürlər. Eyni zamanda bir çox qlobal məsələlərdə də müstəqil siyasət yürütmək imkanlarını artıq Avropa Birliyinə vermiş olurlar. Bu baxımdan Avropa Birliyinə qoşulmaq da tam olaraq dövlətin bütün sahələrdə müstəqilliyini özündə ehtiva etmir. Avrasiya Birliyindən gələn təhlükə isə ondan ibarətdir ki, sonradan onun SSRİ-nin bərpası olaraq təqdimatı riski var. Bu risk yaxın zaman üçün nə dərəcədə realdır onu deyə bilmərəm, amma bu risk var. İstənilən halda SSRİ-nin əvvəlki formatda yaradılması mümkün deyil. Təbii ki, hər hansı bir birliyə qoşulan zaman müəyyən sahələrdə müstəqillik əldən gedir. Amma Avrasiya Birliyinə qoşulmağı da tam olaraq Azərbaycanın müstəqilliyinə, suverenliyinə çox ciddi bir təhdid kimi dəyərləndirmirəm. Hazırkı vəziyyətdə isə deyə bilərəm ki, Azərbaycan hakimiyyətinə daha çox Avrasiya Birliyi sərf edir. Çünki Avrasiya Birliyi Azərbaycanın daxili, siyasi məsələlərinə qarışmır, digər üzv ölkələrə qarışmadığı bəllidir. Yəni Avrasiya Birliyi Azərbaycanda demokratiya, insan hüquqları kimi məsələlərə qarışmır. Avropa Birliyi isə bu cür məsələlərə qarışır. Bu günün özündə Avropa Birliyi bu məsələlərdə Azərbaycan hakimiyyətinin başını çox ağrıdır. Azərbaycan xalqı üçün uzaq perspektivdə Avropa Birliyinə inteqrasiya daha mütərəqqidir".

**Politoloq Ərəstun Oruclu da bu mövzu ilə bağlı fikirlərini bölüşüb. O deyib ki, Elmar Məmmədyarovun Moskva səfərindən sonra mənzərə aydınlaşmağa başlayıb:** "Diqqət yetirmisinizsə, son zamanlar mediada "Azərbaycan müharibəyə hazırdır" və s. bu kimi fikirlərin xüsusi çəkisi artıb. Eyni zamanda bu fonda ölkənin xarici işlər naziri Elmar Məmmədyarov "Rossiya 24" kanalına müsahibəsində belə bir fikir səsləndirib ki, "Gömrük İttifaqı Avrasiya İqtisadi Birliyinin əsas tərkib hissəsidir və Ermənistan tərəfindən işğal olunmuş ərazilərin olması bizə bu ölkə ilə vahid Gömrük İttifaqında olmağa imkan vermir. Məmmədyarov həmçinin Azərbaycanın bu qurumlara üzv ola biləcəyini istisna eləməyən ritorik fikir də söyləyib. O da maraqlıdır ki, bundan bir qədər əvvəl nazir münaqişənin həllinə dair danışıqlarda nikbinlik üçün əsas olduğunu bildirmişdi. Beləliklə, mənzərə aydınlaşmağa başlayır. Hələ 1 ay əvvəl bizə daxil olan məlumatda deyilirdi ki, Azərbaycan rəhbərliyi aşağı Qarabağın işğal altında olan rayonlardan 4-nün qaytarılması istiqamətində Rusiya ilə intensiv danışıqlar aparır. Lakin o vaxt bunu dolayısı ilə də olsa təsdiq edə biləcək faktların olmaması bu məlumatı yaymayaraq, bir qədər gözləməyə əsas olmuşdu. Gördüyümüz kimi, çox gözləməyə ehtiyac qalmadı. Hələlik bir çox məqamlar aydın olmasa da, yəni söhbət neçə rayonun və hansı şərtlər çərçivəsində, hansı yolla qaytarılmasından gedir, ana xətt aydın görünür. Azərbaycan hakimiyyəti Rusiya ilə danışıqlara gedərək, Qarabağda hərbi əməliyyatlara başlayaraq, müəyyən əraziləri qaytarmağı düşünür. Şübhəsiz ki, hətta bir kəndin də qaytarılması zəruridir, çünki qazanılan ən kiçik uğur da gələcək qələbələr üçün stimul rolunu oynaya bilər. Amma ortaya suallar da çıxır. Biz nəyin naminə nədən imtina etməyi düşünürük, yəni 4 rayona görə suverenliyin xeyli hissəsini verməyə hazırlaşırıq? Rusiya bu məsələdə öz payına düşən öhdəliklərə nə dərəcədə əməl edəcək? Ermənistan sakitcə Rusiyanın planına imza atacaq, yoxsa şiddətli müqavimət göstərəcək və hətta dağıdıcı əks-hücuma keçəcək? Münaqişə təzələnəcəyi halda digər dövlətlərin və beynəlxalq güclərin reaksiyası necə olacaq? Hərbi əməliyyatlar uzanarsa və ağır itkilərlə müşayiət olunarsa, bunun hansı nəticələrə gətirib çıxaracağı nə dərəcədə dəqiq hesablanıb? Belə bir həssas münaqişə bölgəsinə sülhməramlı qüvvələr statusunda xarici ölkələrin silahlı qüvvələrinin yeridilməsinə rəvac verməzmi?

Suallar daha çoxdur".

❑ **Etibar SEYİDAĞA**

# Avropa Birliyi baş diplomatından şok etiraf

## Birlik ideyası iflas olur; Moqerini bu ideyaya təzədən baxmağı təklif edir; Azərbaycan və Türkiyənin iradları öz təsdiqini tapmaqdadır...

**Avropa Birliyinin (AB) mötəbər təşkilat olaraq heç də yaxşı dönəm yaşamadığı artıq sirr deyil. Hətta bir sıra müşahidəçilər Ukrayna böhranından və Rusiyaya qarşı sanksiyalar gündəmə gələndən sonra AB-nin öz daxilində də ciddi ziddiyyətlərin baş qaldırdığı qənaətindədirlər. Bu arada qurumun xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali komissarı Federika Moqerini maraqlı açıqlama ilə çıxış edib.**



Federika Moqerini

Xanım Moqerini bildirib ki, Polşadakı prezident, İspaniyadakı bələdiyyə seçkilərinin nəticələri, habelə Yunanıstandan və Böyük Britaniyadan gələn xəbərlər Avropa Birliyi ideyasını təzədən nəzərdən keçirmək zərurəti yaradıb.

"Polşa və İspaniyadakı seçkilər - hərçənd nəticələr müxtəlifdir - həmçinin Yunanıstandan və İngiltərədən gələn xəbərlər diktə edir ki, əgər biz qurucu-atalarımızın layihəsini qoruyub saxlamaq istəyiriksə, o zaman birgə mövcudiyyətimizin üsuluna təzədən baxmaq üçün real zərurət var" - deyib siyasətçi. AB diplomatiyasının başçısı Avropada bu zaman xüsusilə də müxtəlifliyin təməl dəyərlərini saxlamağın vacibliyini qeyd edib.

Xatırladaq ki, Polşada prezident seçkilərində avroskeptik Anjey Duda qalib gəlib ki, bu da ilin axırında təzələnməsi nəzərdə tutulan hökuməti narahat edib. İspaniyada isə regional və yerli seçkilər yeni siyasi qüvvələrin - ultra-solçu "Podemos" partiyasının qələbəsi ilə başa çatıb. Bu partiya Avroatlantik birliyini sərt tənqid edir və rusiyayönlü baxışları bölüşür. Digər qalib qüvvə - "Ciudadanos" hərəkatını da avroskeptiklər formalaşdırıb.

Böyük Britaniyada isə xeyli müddətdir AB-ni tərk etməklə bağlı çağırışlar səslənir, bu ölkədə AB əleyhdarları güclü təbliğat kampaniyası aparırlar. Yəni artıq kifayət qədər mühüm olan 4 üzv ölkədə - Böyük Britaniya, İspaniya, Yunanıstan və Polşada Avropa Birliyi ideyasına elektoratın baxışı ciddi dəyişikliyə məruz qalıb. Əks halda, seçkilərdə Avrointeqrasiya əleyhdarları qalib gəlməzdilər.

Avropa Birliyi ideyası hələ ki, tam iflas olmasa da, Türkiyənin quruma üzvlüyünə və saxta soyqırım məsələsinə münasibətdə, habelə "Şərq Tərəfdaşlığı" Proqramı çərçivəsində AB-nin nümayiş etdirdiyi ikili standartlarda da özünü əhəmiyyətli dərəcədə gözdən salıb.

Son olaraq Azərbaycanın ərazi bütövlüyü məsələsinə və erməni işğalı faktına göstərilən, Riqa sammitinin yekun sənədində əks olunan laqeydlik, Dağlıq Qarabağa dair BMT qətnamələrini sənədə daxil edilməsindən imtina olunması haqlı olaraq Azərbaycanı da narazı salıb, Bakını qurumla bir az daha böyük məsafə saxlamağa vadar edib.

Dünən isə bəlli olub ki, Azərbaycan və Belarus Avropa Xarici Siyasət Xidmətinə etiraz məktubu göndərib. Məktubda "Şərq Tərəfdaşlığı" Sammitinin yekun bəyannaməsinə etiraz edilir. Lakin məktubların mətni açıqlanmır. Xatırladaq ki, bazar ertəsi Azərbaycanın Xarici İşlər Nazirliyi bildirmişdi ki, sammitin yekun bəyannaməsinin müəllifləri ikili standartlardan yan keçə bilməyiblər.

**"Bakı Avropa İttifaqından Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar aydın və birmənalı mövqe nümayiş etdirməyi gözləyir"**, - deyə XİN bəyanatda qeyd edilirdi.

Son hadisələr, üstəgəl Rusiya işğalına qarşı vahid və təsirli konsepsiyanın ortaya qoyulmaması Moqerinin təklifinin yetərincə aktual olduğunu göstərir. Avropa Birliyi ideyasına təzədən baxmağın zamanı yəqin ki, yetişib. Ancaq əgər yeni ideya da "xristian klubu" ideyasından mənbə götürəcəksə, müsəlman ölkələr olan Türkiyə və Azərbaycana başqa, işğalçı Ermənistana isə xristian olduğu üçün başqa gözlə baxılacaqsa, o zaman önümüzdəki illərdə ciddi keyfiyyət dəyişikliklərindən danışmağa dəyməyəcək və ideyanın iflası tezləşəcək.

❑ **Siyasət şöbəsi**

# Sənaya atılan bombanın Tehranda partlaması

## İran-Səudiyyə qarşıdurması Yaxın Şərqdə böyük savaşa çevrilmək yolunda

**Mayın 25-də İranın paytaxtı Tehranın mərkəzi küçələrinin birində ali dini lider Əli Xameneyiyə aid olduğu bildirilən binalardan birində güclü partlayış olduğu haqda xəbərlər yayılıb. Xəbərlərdə partlayış zamanı azı 295 nəfərin öldüyü, 2650 nəfərin isə yaralandığı bildirilsə də, partlayışların səbəbi, kim tərəfindən törədildiyi haqda heç nə yazılmayıb. Eyni zamanda yerli mənbələrdən heç bir açıqlama verilməyib.**



Bundan başqa, əvvəlcə məlumatlın ərəb mediasına istinadən yayıldığı bildirilsə də, sonradan İsrailin debkafile saytının bu xəbərin ilk qaynağı olduğu iddia edilib. Bunu isə Misirin "al-Bawaba News" saytı yazıb. Lakin sonradan məlum olub ki, debkafile saytında belə bir məlumat yoxdur, xəbər isə ümumiyyətlə, təsdiqini tapmayıb. Belə görünür ki, debkafile saytı əvvəlcə xəbəri yaysa da, sonradan çıxarıb.

Ancaq bu məlumatla eyni vaxtda Səudiyyə Ərəbistanının rəhbərlik etdiyi koalisiya qüvvələrinin Yəməni bombaladığı zaman atılan iki raketin İranın Sənadakı səfirliyi yaxınlığında partladığı xəbəri yayılıb. Səfirlikdə tələfatın olub-olmadığı ilə bağlı dəqiq məlumat yayılmasa da, ötən gün Səudiyyə Ərəbistanının İrandakı səfirini əvəz edən müvəqqəti işlər vəkili XİN-ə çağırılıb və ona İran hökumətinin notası təqdim olunub. İran XİN-in yaydığı məlumatda qeyd olunur ki, müvəqqəti işlər vəkili XİN-ə dəvət olunub və ona Sənada səfirlikdə baş verən hadisə ilə bağlı "şiddətli etiraz" bildirilib. Eyni zamanda səfirlik binalarının və diplomatların toxunulmazlığı və təhlükəsizliyi ilə bağlı xəbərdarlıq edilib. Müvəqqəti işlər vəkilinə bildirilib ki, koalisiyaya üzv olan ölkələr diplomatların təhlükəsizliyi ilə bağlı beynəlxalq öhdəlikləri pozacaqları təqdirdə bunun nəticəsinə görə cavabdehlik daşıyacaq.

Məlum olduğu kimi, Səudiyyə Ərəbistanının ərəb dövlətlərinin bir qismi ilə koalisiya təşkil edib Yəməni bombalaması ən çox İranda etiraza səbəb olub. Çünki Yəməndə hakimiyyəti ələ almış Husi üsyançıları İrana ideoloji olaraq yaxın qüvvə hesab olunur. İran rəsmən bu bağı inkar etsə də, Yəməndəki savaşın dayandırılması üçün diplomatik cəhdlərini davam etdirir. Eyni zamanda Yəmənə hava zərbələri Tehran-ər-Riyad münasibətlərini xeyli dərəcədə gərginləşdirib. Daha əvvəl onsuz da Suriya və İraq mövzusunda soyuq olan münasibətlər Yəmən hadisələrindən sonra gərginləşərək açıq ittihamalara səbəb olub. Hətta İranın ali dini lideri Yəmənə müdaxiləyə görə açıq şəkildə Səudiyyə hakimiyyətini təcavüzkarlıqda ittiham edib.

Görünən odur ki, Tehranda partlayış xəbəri əslində Sənadakı partlayışların əks-sədası olub. Yeri gəlmişkən, bir neçə gün əvvəl Livan Hizbullah hərəkatı da ümumi səfərbərlik elan edəcəyini bəyan edərək təkfirçiliyi əsas düşmən adlandırıb. Yəni artıq hər keçən gün cəbhə xətləri genişlənməkdədir. Aydın məsələdir ki, Tehranda partlayış xəbəri informasiya müharibəsinin elementi olub. Lakin eyni zamanda bu xəbər həm də mesaj xarakteri daşıyır. Yəni Tehran rəqiblərinin hədəfindədir. Proseslərin gedişi onu göstərir ki, bölgəni getdikcə daha çox xaos bürüyür. Hər keçən il savaşın sərhədləri daha da genişlənir. Aydın məsələdir ki, savaşan cəbhənin bir tərəfində Tehran dayanıb və indi İranda daxili təxribatların, terrorun baş verməsi ehtimalı xeyli dərəcədə artıb. Hələliksə üfüqdə böyük sülh görünmür və bu səbəbdən qanlı savaşın regionun digər ölkələrinə yayılması ehtimalı günü-gündən artır.

❑ **KƏNAN**

# Millət vəsiqəsi...



**Hüseynbala SƏLİMOV**

**"Bayramlar"la zəngin mayın axır elə bir günü yetişdi ki, onu həqiqətən də bayram hesab etmək mümkündür-bu, 28 Maydır...**

**Əslində hamı kimi olmaq elə də pis deyil. Hamı bir vaxt azad olmaq istədi və biz də istədik. Bəli, hamı kimi bizim də birinci cəhdimiz bir az uğursuz oldu... Amma 28 May olmasaydı çox şey olmayacaqdı - Azərbaycan SSR olmayacaqdı, məhdud dövlət atributları, hətta inzibati sərhədlər olmayacaqdı və biz daha heç vaxt dirçəlməyəcəkdik, yəqin ki, Rusiyanın federasiya subyektlərindən biri olacaqdıq...**

Bundan bizi 28 May hifz etdi. 28 May olmasaydı nədən başlamağı və nədə qurtarmağı da bilməyəcəkdik. İndi formal da olsa, quruluşumuz respublikadır, siyasi sistemimiz demokratiyadır...

Qərəz, 1918-ci ilin 28 Mayında millət vəsiqəsi aldıq. O vaxta qədər də dövlət quruluşları olmuşdu, amma onların hamısı sülalə rejimləri idi. Milli dövlətlər və millət özü kapitalizmin məhsuludur. Biz kapitalizmi Rusiya imperiyasının tərkibində qarşıladıq-bir millət kimi özümüzü dərk etməyə başladıq, bəxtimizdən də tez bir zamanda milli dövlətçiliyimizi elan etmək üçün şans da yarandı və bunu etdik, iddiamızı ortaya qoyduq...

İndi milli dövlətçiliklə bağlı müəlliflik iddiasında olanlar çoxdur. Amma buna yalnız o dövrün insanları-M.Ə.Rəsulzadə, Ə.Topçubaşov və F.Xoyski iddia edə bilər. Amma özlərinə liderlik və "millət atası" çələngi təmin etmək onların heç ağlına da gəlmirdi - axıra qədər onlar yalnız işlə məşğul idilər...

Bu sətirləri ona görə yazmıram ki, mən yazmasam başqaları yazmayacaq. Yox, indi yazan çoxdur. Amma hər yazının gözünə bir az yalan qatan, adlarını çəkdiyim insanlarla bahəm başqalarının da adını hallandıranlar çoxdur...

Nə etmək olar? Həqiqətlə yalan əkiz qardaşdır, elə bil ki, biri cism və biri də kölgədir - biri gerçək olanda o birisi onun kölgəsi olur, beləcə, daim biri-birini təqib edirlər...

"Kölgələr günorta yox olur" deyiblər. Hələ ki, günorta yetşiməyib. Səhərin alatoranlığıdır - 24 il elə də böyük bir zaman kəsiyi deyil axı!.. Ona görə də bu ölkədə hələ bütün künc-bucaqlar işıqlanmayıb, zehinlərdə hələ də qaranlıqdır... Dedim axı!.. Hələ səhərin alatoranlığıdır. Elə bu səbəbdən də bir az səbir lazımdır ki, hamının yuxudan ayılmasını gözləyə biləsən...

Bu 28 May ərəfəsində məni sevindirən bilirsiniz nə oldu? Dedilər ki, növbəti ildən məktəblərdə ortaq türk tarixi tədris olunacaq! Bilmirəm, bunu edəcəklər, ya yenə də təxirə salınacaq? Amma baş tutsa, böyük hadisədir.

Düzdür, tarix kitablarında türklüyə vurğu elə indi də sezilir. Amma ortaq türk tarixi tamam başqa bir aləmdir. Uşaqlarımız biri-birini daha yaxşı tanımağa və birlik nə demək olduğunu daha real dərk etməyə başlayacaqlar...

Bu da müəyyən mənada 28 Mayın təntənəsidir. Bəli, 28 May olmasaydı bu da olmayacaqdı - uşaqlarımız indi Rusiyanın tarixini öyrənməli olacaqdılar...

Demirəm ki, Rusiya tarixi mənasız bir şeydi. Yox, mənasız deyil, amma bizim deyil, hər bir millət birinci növbədə öz tarixini bilməlidir...

Təəssüf ki, 28 May bəziləri üçün bir qədər yad bayramdır. Mən bunu kinayə ilə, qısqanclığın təzahürü kimi demirəm. Onlar özləri belə hiss edirlər. Bəzi adamlar üçün hər şey 1993-cü ildən başlayır. Təəssüf ki...

Nə isə. Bu da ötəridir. Nəsillər dəyişdikcə təsəvvürlər də dəyişir. Hərçənd, bizim telekanallara baxanda buna bir az şübhə edirsən - düşünürsən ki, bunlara baxan gənclərin təsəvvürü dəyişəcəkmi?..

Amma dəyişəcək. Bunu sizə mən deyirəm. Yetər ki, həmin gənclik bir az savadlı və məntiqli olsun. Savad və məntiq onları aparıb doğru ünvana-necə deyərlər, həqiqətin ünvanına çıxaracaq...

Ləng də olsa hər şey dəyişir. Bəli, təkcə küçələr, məhəllələr, hətta bütövlükdə şəhər dəyişmir, hər şey dəyişir-ən başlıcası isə, insanlar da dəyişir...

Düzdür, bu, çox ləng gedir. Amma təbiidir. Daşın-divarın dəyişməsi daha asan başa gəlir, nəinki insanın. Buna da alışmaq lazımdır...

İnsanlara da bir ətalət xasdır. İnsan bir şeyi eşidəndə əvvəlcə "Ola bilməz!", ikinci dəfə eşidəndə "Bəlkə də...", üçüncü dəfə eşidəndə isə "Bunu kim bilmir ki?" deyir və o vaxt əmin olursan ki, bəli, artıq çatıb...

İndilik isə demək olar ki, 1918-20-ci illərdə biz də hamı kimi bir dəflik azad ola bilmədik, 1991-ci ildə isə hamı kimi azad olduq...

Həm də bilirsiniz nə var? İnsanlar fikirləri və ideyaları müəllifsiz daha yaxşı qavrayırlar. Ona görə də 28 Maya müəllif axtarmayaq. Sadəcə, deyək ki, bəli, bu, millətin bayramıdır...

YENİ MÜSAVAT
N 115 (6143) 28 may 2015



# Tarana gedən iqtidar

Azər RƏŞİDOĞLU

**Bu il Azərbaycan diplomatiyası "açıq qapı" siyasətinə korrektələr etmək zorundadır. Bu il Azərbaycanda həm Avropa Oyunları, həm də parlament seçkiləri keçiriləcək. Bu mühüm idman yarışının Bakıda keçirilməsi dünyanın nəzərini Azərbaycana cəlb edir.**

Avropa Oyunlarının Bakıda keçirilməsi iqtidara manevr imkanları ilə yanaşı xeyli problemlər də yaradır. Neftin qiymətinin ucuzlaşdığı bir zamanda havaya milyonlarla vəsait sovrulur. Digər tərəfdən, seçki ilində Bakı diqqət mərkəzinə çıxır və istər-istəməz insan haqlarının vəziyyəti dünya mətbuatının müzakirə predmetinə çevrilir.

Şübhəsiz ki, siyasi məhbuslar azad edilməsə Avropa Oyunları zamanı müxalifətin kütləvi etiraz aksiyaları keçirə biləcəyi ehtimalı yaranır. Artıq dünya gücləri tərəfindən siyasi məhbuslar probleminin həll edilməsi barədə çağırışlar eşidilməkdədir. Belə ehtimallar mövcuddur ki, bu məsələ ilə bağlı rəsmi Bakı qarşısında şərt qoyula bilər. Beynəlxalq aləm siyasi məhbus problemindən narahatdır və hakimiyyətdən heç olmasa Avropa Yay Oyunları ərəfəsində bu siyasətə son qoymasını tələb edir.

Siyasi məhbus problemi Azərbaycan hakimiyyəti ilə Qərb arasında prinsipial məsələyə çevrilib. Odur ki, Avropa Oyunlarına qədər əfv fərmanı verilməsini rəsmi Bakıdan tələb edə bilər. Hakimiyyət Azərbaycan üçün beynəlxalq aləmdə problemlərə yol açan siyasi məhbuslar məsələsi ilə bağlı oyunlara qədər konkret addımlar atmasa bunun fəsadları ola bilər.

Lakin görünən budur ki, beynəlxalq yarışmaya qədər əfv fərmanı verilməyəcək. Ola bilər ki, «Eurovision» yarışması zamanı olduğu kimi, əfv beynəlxalq tədbirdən sonra həyata keçirilsin. Lakin gecikmiş fərmanın effektivliyi nə qədər olacaq? Vətəndaş cəmiyyəti institutlarına, demokratik qüvvələrə qarşı sərgilənən davranış Avropa dəyərlərinə ziddir. Azərbaycan hakimiyyəti ölkənin zərər görməməsi naminə bu ziddiyyətin aradan qalxması üçün addımlar atmalı, ilk növbədə siyasi məhbusları azad etməlidir.

Lakin əgər bu dəfə də Qərb siyasi məhbus probleminə göz yumaraq Avropa Oyunlarını iqtidarın seçkiqabağı təbliğatı aparatına çevrilməsinə rəvac verəcəksə, bu halda vəziyyət daha kritik çalar ala bilər.

Bir sözlə, iqtidar yay oyunlarını payız oyunları üçün baş məşqə çevirə bilər. İstənilən halda, müxalifət Avropa Oyunlarından bəhrələnərək, hakimiyyəti demokratiyanın inkişafı istiqamətində addımlar atmağa vadar edə bilər. Bu baxımdan, bu mötəbər yarışla bağlı sərt mövqe sərgiləmək parlament seçkilərinə hazırlığın birinci mərhələsi hesab oluna bilərdi. Bir sözlə, 2015-ci il Azərbaycan demokratiyasının taleyində önəmli olacaq. Bu məsələdə "qızıl orta" mövcud deyil. Ya qələbə, ya məğlubiyyət. Kənardan görünən isə budur ki, iqtidar vo-banka gedir...

# Vergi borcları - hökumət artıq heç kimi bağışlamır...

## İri şirkətlər vergiləri ödəməyə məcbur edilib, nazirlik isə borcluların cinayət məsuliyyətinə cəlb ediləcəyini açıqlayıb...

**Milyonlarla manat kredit borcuna görə həbsə atılan oliqarxların məsələsi gündəmə düşdükdən sonra iri şirkətlərin vergi borcları da yenidən diqqət çəkməyə başlayıb. Vergilər Nazirliyi vergi borcları ilə bağlı ənənəvi hesabatını açıqlayandan dərhal sonra borcluların da cinayət məsuliyyətinə cəlb ediləcəyinin anonsu verilib. Ekspertlər bildirirlər ki, oliqarxlara məxsus şirkətlərin vergi borcları zaman-zaman yığılıb qalır. Onlar vergi borclarını ödəmək istəmirlər. Problem ciddi olmaqla bərabər, dövlət büdcəsi ilə bağlı kritik məqamda bir daha aktualdır.**

Qeyd edək ki, Vergilər Nazirliyinin vergi borcunu ödəməyən vergi ödəyiciləri barədə yaydığı məlumatda xeyli fiziki və hüquqi şəxsin adı var. Ekspertlərə görə, neftin qiymətinin ucuzlaşmasından sonra dövlət büdcəsinin icrasında yaranan problemlər bu məsələyə diqqəti artırıb. Böyük şirkətlərin isə büdcəyə külli miqdarda borcu olduğu vurğulanır. Hazırda dövlətə iri vergi ödəyicilərinin 2,2 milyard manat borcu olduğu bildirilir. Onların arasında "Azərsu", "Azərenerji" kimi iri dövlət qurumlarının da olduğu bildirilir. İri dövlət qurumlarının bir neçəsi məsələ ilə bağlı musavat.com-a danışıblar.

**"Azərsu" ASC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Anar Cəbrayıllının sözlərinə görə, qurumun tabeliyində olan təşkilatlar vergi borclarını ödəməyə çalışırlar:** "Əksəriyyəti vergi borclarının böyük hissəsini ödəyiblər. Misal üçün, Şəki Su-kanal və Göyçay Su-kanal idarələri borclarını tamam bağlayıblar. Su-tikinti müəssisəsi də bir neçə aya bağlayacaq. Artıq məsələ razılaşdırılıb. Borclu təşkilatlar həm cari vergilərini ödəyir, həm də borclardan hissə-hissə ödəyirlər. Bir neçə aya bütün borclar bağlanacaq. Artıq proses yekunlaşmaq üzrədir. Başqa heç bir problem olmayacaq". **O, borcların yaranma səbəblərindən danışmayıb:** "Texniki səbəb deyil. Artıq borclar ödənilir".

**"Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev isə bildirib ki, nə "Azərişıq"ın, nə də "Bakıelektrikşəbəkə"nin vergi borcu yoxdur. "Azəriqaz"ın İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi İbrahim Kərbalayev isə deyib ki, sualı cavablandırmaq istəmir:** "SOCAR-dan soruşun". Dövlət Neft Şirkətinin mətbuat katibi Nizaməddin Quliyev bildirib ki, onların vergi borcları yoxdur: "Biz vergiləri mütəmadi şəkildə ödəyirik".

Qeyd edək ki, Vergilər Nazirliyinin açıqladığı aylıq siyahı hər dəfə fərqli olur. Bildirilir ki, borcunu ödəmiş şirkətin adı siyahıdan çıxarılır, yeni borclu şirkət əvəzində "qara siyahı"ya əlavə edilir. Ekspertlər isə bildirilər ki, əksinə, bu borcların ildən-ilə azalması isə kağız üzərindədir. Dövlət şirkətlərinin vergi yığımlarında anarxiya isə hələ də davam etməkdədir. Ekspertlərin fikrincə, iri dövlət vergi ödəyicilərinin əksəriyyətinin büdcəyə vergi borcları qalır. Səbəb dövlət müəssisələrində maliyyə intizamsızlığının yaranmasıdır. Əksər hallarda həmin borclar Nazirlər Kabinetinin qərarı ilə silinir. Bu yolla vergi borclarının həcmi azaldılır. Ekspertlərə görə, hər dəfə borcların bağışlanılması göstərir ki, hökumət problemin həllində maraqlı deyil. Bu borclar isə korrupsiya əməliyyatlarından yaranıb.

**Qeyd edək ki, bir neçə gün əvvəl Vergilər Nazirliyi "Yeni Müsavat"ın sorğusunu cavablandırarkən bildirib ki, nazirlik vergi borcları geri almaq üçün də tədbirlər görür:** "Vergi orqanları tərəfindən vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borcların vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarından dövlət büdcəsinə alınması üçün kredit və ya bank əməliyyatları aparan şəxsə icra, ödəniş sənədi olan sərəncamlar verilir. Vergi ödəyicisi vergi borcunu 30 gün müddətində ödəməzsə, onun əmlakı siyahıya alınır. Cinayət Məcəlləsinin 303.1-ci maddəsinə əsasən siyahıya alınmış və ya üzərinə həbs qoyulmuş əmlakın etibar olunmuş şəxs tərəfindən israf edilməsi, özgəninkiləşdirilməsi, gizlədilməsi, yaxud dəyişdirilməsinə görə həmin şəxslər cinayət məsuliyyəti daşıyırlar. Borclu vergi ödəyicisinin avtonəqliyyat vasitəsi olduqda, borc məbləğinin həmin avtonəqliyyat vasitələrinə yönəldilməsi məqsədilə aidiyyəti məhkəmələrə müraciət edilir. Məhkəmə qərarı ilə avtonəqliyyat vasitələrinin üzərinə borc ödənilənədək həbs qoyulur və onlar cərimə meydançalarında yerləşdirilir. Borclu vergi ödəyicisinin vergi borclarının ödənilməsinin təmini üsulu kimi siyahıya alınmalı əmlakı olmadıqda və ya kifayət qədər əmlakı olmadıqda, borclu vergi ödəyicilərinin digər əmlaklarının müəyyən edilməsi üçün həmin şəxslərin məhdud məsuliyyətli cəmiyyətdə, ortaqlıqda və ya kooperativdə təsisçi olub-olmamaları araşdırılır. Təsisçi olduqları təqdirdə, borc məbləğinin onun həmin hüquqi şəxsin nizamnamə kapitalındakı payına uyğun hissəsinə yönəldilməsi məqsədilə məhkəməyə müraciət edilir. Borclu fiziki şəxs hər hansı bir yerdə muzdlu işçi kimi çalışdıqda, borc məbləğinin onun muzdlu işlə əlaqədar gəlirlərinə yönəldilməsi məqsədilə aidiyyəti məhkəmələrə də müraciətlər edilə bilər. Xarici ölkələrə gedib-gələn borclu vergi ödəyicilərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması məqsədilə qanunda nəzərdə tutulmuş tədbirlər görülür. Borc məbləğinin tələbin icraya yönəldilməsi qaydasında tutulması məqsədilə icra məmurlarına müraciətlər edilir. Cinayət Məcəlləsinin 213-cü maddəsinə əsasən, xeyli miqdarda, iki min manatdan əlli min manatadək olan məbləğ və ya külli miqdarda, əlli min manatdan yuxarı olan məbləğdə vergiləri və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma cinayət əməli hesab edilir. Cinayət tərkibi yaradan vergi borcu materialları ibtidai istintaq qaydasında araşdırılması məqsədilə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilir və istintaqın nəticələrindən asılı olaraq, borclu vergi ödəyicisi cinayət məsuliyyətinə cəlb edilə bilər".




Borclarının alınması mexanizmləri ilə bağlı sorğumuzla əlaqədar bildiririk ki, vergi borclarının alınması üçün vergi orqanları tərəfindən Vergi Məcəlləsi və digər qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərdən istifadə olunur. Borclu vergi ödəyicisinə hesablanmış vergilərin, faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının 5 gün müddətində ödənilməsi barədə bildiriş göndərilir. Vergi borcları bildirişdə göstərilən müddətdə ödənilmədikdə




**Nazirlikdən bildirilib ki, Vergi Məcəlləsinin 59.1-ci maddəsinə əsasən, vergi və ya cari vergi ödəməsi müəyyən edilmiş müddətdə ödənilmədikdə ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən və ya vergi agentindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0,1 faizi məbləğində faiz tutulur:** "Vergilər Nazirliyi tərəfindən müvafiq xəbərdarlıqdan sonra da, imkanı olmasına baxmayaraq, dövlət büdcəsinə olan vergi borcunu ödəməkdən yayınmağa cəhd göstərən borclu vergi ödəyicilərinin adları "Vergilər" qəzetində və Vergilər Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilir. Həmin vergi ödəyicilərindən borcların alınması məqsədilə yuxarıda sadalanan tədbirlərdən istifadə olunur. Borclu vergi ödəyicisinin adı bu siyahıya bir dəfə daxil edilir. Belə ki, 02.07.2014-cü il tarixdən etibarən "Vergilər" qəzetinin hər buraxılışında dövlət büdcəsinə olan borclarını ödəmək imkanı olsa da, bundan yayınmağa çalışan borclu vergi ödəyicilərinin siyahısı dərc olunur və artan yekunla Vergilər Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilir. Vergi borcunu ödəyən vergi ödəyicilərinin adları dərhal həmin siyahıdan çıxarılır".

RÖYA

YENİ MÜSAVAT
N 115 (6143) 28 may 2015

# 53 vətəndaş mənzil dələduzlarından prezidentə şikayət etdi

## "Badü Kübə" MTK-nın indiki və keçmiş rəhbərləri müştərilərini aldadıblar

**Suraxanı rayonu, Yeni Günəşli qəsəbəsi "V" yaşayış sahəsində "Badü Kübə" MTK tərəfindən inşa olunan "13 M" saylı çoxmərtəbəli binanın payçıları redaksiyamıza məktub yollayıb. Məktub müəllifləri yazır ki, 2006-2009-cu illər ərzində MTK tərəfindən inşa edilən binadan nağd ödəmə yolu ilə mənzillər alıblar. Mənzillərin dəyəri tam ödənildikdən sonra MTK-nın o vaxtkı sədri Telman Səfərovun imzası ilə müqavilə və maliyyə arayışları alıblar.**



"Ödədiyimiz vəsait hesabına binanın 13 mərtəbəsi tam olaraq tikildi. Lakin 2010-cu ilin aprelindən MTK-nın yeni sədri biz payçıları binaya buraxmadı. Buna səbəb kimi sənədlərimizin saxta olduğunu göstərir. Sonralar MTK-nın yeni sədri Ədalət Qənbərov və təsisçilər Nəsib Əliyev və kürəkəni Zaur Cabbarov arasında münaqişə yarandı. Nəticədə Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində onlara qarşı cinayət işi başlandı" -deyə məktub müəllifləri yazır.

**Şikayətçilər qeyd edirlər ki, cinayət işinin istintaqı 18 ay davam edib. 119 nəfər payçıdan cəmi 12 nəfər mənzillə təmin olunub. Bununla da istintaq işini bitmiş sayıb:** "Cinayət işinə xitam verərək işi arxivə göndəriblər. Lakin payçıların birgə səyi və Baş Prokurorluğun göstərişi ilə cinayət işini arxivdən qaldıraraq Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə göndəriblər. Mühüm işlər üzrə böyük müstəntiq, ədliyyə müşaviri Elxan Əbdülrəhimovun rəhbərlik etdiyi istintaq qrupu cinayət işini 4 yanvar 2012-ci ildən 13 fevral 2013-cü ilə kimi araşdırıldı. Nəticədə 2012- ci ilin fevral ayının 20-də Zaur Cabbarov və Nəsib Əliyev CM-in 178.3.2 və 308.2 maddələri ilə təqsirli bilinərək barələrində həbs-qətimkan tətbiq edilib. Məlum olub ki, heç də Ədalət Qənbərovun iddia etdiyi kimi, payçıların sənədləri saxta deyil, bütün 119 payçı zərər çəkmiş kimi tanınıb, onların sənədləri ekspertizadan keçirilib, imza və möhürlər saxta deyil. N.Əliyev həbsdə olanda heç bir hüquqi sənəd olmadan Ədalət Qənbərov biz payçıların mənzillərini Nəsib Əliyevin borcu əvəzinə M.Manafova 19 mənzil, 4 qaraj, Firudin Əliyevə 17 mənzil, 3 qaraj, Eldar Hidayətzadəyə 9 mənzil, Zamin Sultanova 800 kvm qeyri-yaşayış sahəsi, Elçin Hidayətzadəyə 5 mənzil, Ceyhun Nağıyevə 6 mənzil sataraq külli miqdarda gəlir əldə edib. Cəmi 56 mənzil, 7 qaraj və 800 kvm qeyri-yaşayış sahəsi. Öz növbəsində həmin adamlar mənzilləri ayrı-ayrı adamlara satıblar. Bütün bu alqı-satqı əməliyyatını Ədalət Qənbərov edib. Nəticədə biz payçıların mənzilləri 3-cü dəfə satılıb. Bu haqda biz Baş Prokuror yanın Korrupsiyaya Qarşı Mübarizə İdarəsində dedik və nə üçün bu qanunsuzluğa yol verildiyini soruşduq. Əvəzində bizi sakitləşdirdilər və bunun məhkəmə yolu ilə həll edəcəyinə söz verdilər. Ədalət Qənbərovun 486 min manat məbləğində gəlir vergisi dövlət tərəfindən silinib, istintaq qrupunun rəisi E.Əbdulrəhimov dedi ki, bunu ona görə edirlər ki, o, binanı tikdirib payçıları evlə təmin etməyə söz verib. Lakin o, nəinki bizi evlə təmin etmədi, hətta Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəməsinin hökmü ilə bizə verilən mənzilləri keçmiş şəriki Asif Əsədullazadəyə öz borcu əvəzinə verdi. İstintaq vaxtı daha 30 (otuz) payçı mənzillə təmin olundu. Məhkəmə baxışı 13 ay davam etdi. Nəticədə Zaur Cabbarov və Nəsib Əliyev təqsirli bilinərək 8 və 11 il həbs cəzasına məhkum edildilər. Məhkəmə vaxtı da 11 payçı mənzillə təmin olundu. Ümumi mənzillə təmin olunanların sayı 53 nəfər oldu. Mənzillə təmin olunanlar Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin göstərişi ilə Ağır Cinayətlər Məhkəməsinə və MTK-ya mülki iddiaların məhkəmə tərəfindən təmin olunduğu barədə ərizələrlə müraciət etdilər. Lakin sevincimiz uzun sürmədi. 2 fevral 2015-ci ildə bizim xəbərimiz olmadan məhkəmə icraçılarının iştirakı ilə Ədalət Qənbərov bütün 53 mənzili keçmiş şəriki A.Əsədullazadəyə öz borcu əvəzinə verib. Asif Əsədullazadə bizim təmir etdirib seyf qapısı qoyduğumuz mənzillərin bütün qapılarını sındırıb yeni qapı və qıfıllar qoydurub. Ona görə də ev əşyalarımız olduğu mənzillərimizə daxil ola bilmirik".

**Məktub müəllifləri yazır ki, əllərindən alınmış 53 mənzilin hazırkı qiymətlərlə 3 milyondan çox qiyməti var:** "Ədalət Qənbərov, Firidun Əliyev və Asif Əsədullazadə cinayət əlaqəsinə girərək bizim mənzillərimizi sataraq külli miqdarda gəlir əldə etmək istəyirlər. Əldə etdikləri bu gəliri havadarları ilə birlikdə öz aralarında bölmək istəyirlər. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmünə məhəl qoymurlar. Bizim ümidimiz prezident İlham Əliyevədir. Ondan xahiş edirik ki, mənzillərimizin özümüzə qaytarılması üçün müvafiq qurumlara göstəriş versin".

❑ E.HÜSEYNOV

# Bu yollar bağlı olacaq

## DYP sürücülərə xəbərdarlıq etdi

**Bakıda bir neçə yol nəqliyyatın hərəkəti üçün bağlanacaq. Bu barədə APA-ya Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin (BŞDYPİ) İctimai qurumlarla əlaqələr bölməsinin rəisi Vaqif Əsədov bildirib. Məlumata görə, paytaxt ərazisində I Avropa Oyunları ilə əlaqədar növbəti təlim və sınaq tədbirlərinin keçirilməsi ilə əlaqədar sabah saat 10:30-dan etibarən tədbir tam başa çatanadək paytaxtın Neftçilər prospekti boyu hotellərdəki qonaqların Heydər Əliyev Mərkəzinə doğru hərəkətinin müşayiəti və görülən təhlükəsizlik tədbirləri ilə əlaqədar "Azneft" dairəsi, Neftçilər prospekti, Azadlıq meydanı, Yusif Səfərov küçəsi, "10-cu zavod" dairəsi, Heydər Əliyev prospekti, Heydər Əliyev Mərkəzi, metronun "Koroğlu" stansiyası, Milli Olimpiya Stadionuna doğru nəqliyyat vasitələrinin istiqaməti dəyişdiriləcək.**



"Azneft" dairəsindən Niyazi küçəsi, İstiqlaliyyət, Lermontov, Mehdi Hüseyn küçələri və Parlament prospektinə, eləcə də "Cavanşir" körpüsündən Üzeyir Hacıbəyov küçəsi ilə "Azadlıq" meydanı, Zərifə Əliyeva və Rəsul Rza küçələrində nəqliyyatın hərəkəti üçün bağlanacaq.

V.Əsədov sürücülərə müraciətində bildirib ki, göstərilən yollarda nəqliyyatın hərəkət istiqaməti dəyişdiyi üçün paytaxtın cənub girişindən Bakı-Salyan yolunun 14-cü km-dən 3-cü kənar dairəvi yolla Badamdar qəsəbəsi və "20 Yanvar" dairəsi istiqamətində hərəkət etmələri, eləcə də "20-ci sahə" dairəsindən və Bayıl qəsəbəsindən isə Neftçilər prospekti istiqamətinə deyil, dağüstü yolla Badamdar qəsəbəsi və Mətbuat prospekti istiqamətinə hərəkət etmələri tövsiyə olunur.

Qeyd olunub ki, Heydər Əliyev Beynəlxalq Hava Limanından şəhərə doğru gələnlərin hərəkəti Aeroport yolundakı körpünün üzərindən Bakı-Hövsan beton yolu ilə planlaşdırılır. Bakının bu istiqamətdəki qəsəbələrindən isə metronun "Koroğlu" stansiyasına doğru şəhər şossesi ilə körpünün üzərindən Elşən Mehdiyev küçəsindən keçməklə Bakıxanov qəsəbədaxili yollarla və yaxud 8-ci km qəsəbəsi, Qara Qarayev prospekti ilə körpünün üzərindən keçməklə Ziya Bünyadov prospektinə doğru rahat hərəkət etməklə mümkün olacaq. Eyni zamanda göstərilən ərazilər üzrə əks istiqamətdə hərəkət edənlərə də sadalanan yollardan istifadə etmələri tövsiyə olunur.

Bölmə rəisi əlavə edib ki, ümumiyyətlə, Ziya Bünyadov prospekti və ona kəsişən bütün yollarda hərəkətin rahat və fasiləsizliyi tam təmin ediləcək.

Vaqif Əsədov sabah Dənizkənarı Milli Parkda keçiriləcək dövlət tədbirinə gələn qonaqlara şəxsi avtomobillərdən az istifadə etməyi tövsiyə edib.

# İsa bulağındakı villanın sahibi



Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Gündəmin baş mövzusu "Dostluq" parkında sökülən "sahibsiz" villalardır. Bakının cənub girişində buldozerə verilən milyonlar nəinki penoplast üzlüklərin sökülməsini, hətta ermənilərin Qubadlının Xanlıq kəndində, Həkəri çayı sahilində saldıqları qəsəbəni də arxa plana keçirib. Başımız dəbdəbəli həyat yaşayanların ölkəyə yaşatdığı faciələrə elə qarışıb ki, Qarabağdakı naməlum və qanunsuz tikililərə vaxt ayıra bilmirik.**

Görün nə vəziyyət yaranıb ki, hətta bir neçə il əvvəl ölkə başçısı həmin ərazidə tikintilərin dayandırılmasına göstəriş versə də, o zaman üçün bu tapşırığa əməl olunsa da, üstündən illər keçəndən sonra yenə də hansısa fövqəladə cəsarət sahibləri orda villa-saray ucaltmaq "iqtidarında" olublar. Ancaq hər kəs bilir ki, divara mıx vurmaq da üçün kimlərinsə izni olmalıdır.

Hər halda, adını belə qoyublar - "sahibsiz". Təbii ki, burada ölkə başçısının sərt mövqeyi olduğu üçün nə Heydər Əliyevin saldığı parkın torpağını torba ilə daşıtdıranlar - icazə verənlər, nə də icazə alıb villa ucaldanlardan səs-səmir gəlmir. Kim istər kəndiri könüllü boynuna keçirsin? Ancaq dəyəri milyonlarla ölçülən villa sahiblərinin bununla müflisləşdiyini, küçədə gecələmək məcburiyyətində qaldığını da düşünmək sadəlövhlükdür. Olmasın bir villa...

Hacıbala Abutalıbov deyib ki, ərazidə 42 villa söküləcək. Orta hesabla 42 milyon. Təbii ki, bu pullar xalqdan və dövlətdən oğurlanıb, mənimsənilib. Əks təqdirdə heç kim zəhmətinin bəhrəsi, əlinin qabarı olan evinin yerlə bir edilməsinə bu qədər sakit şəkildə seyrçi qalmazdı.

Azərbaycana bax, beləcə zərbələr vurdular bu illərdə. Təpə görən kimi oranı rahatladıb yerində dağ boyda villa-saray tikdirənlər, bulaq görən kimi suyunu qəsb edənlər, meşəni hasarlayanlar, dənizi çəpərləyənlər təkcə xalqı soymadılar bu illərdə, həm də dövlətin imicinə zərbə vurdular.

97 il öncə ölüm təhdidi altında Azərbaycan dövlətini quran kişilərin heç ağlına gəlməzdi ki, bir zaman gələcək bu məmləkətin sərvətlərindən bəhrələnənlər onun imicini beş qəpiklik etməyi özlərinə rəva biləcəklər. Barı heç olmasa bu milyonlar xalqın irili-xırdalı problemlərinin həllinə sərf olunaydı, Azərbaycanın dünyada normal dövlət və cəmiyyət olaraq tanıdılması üçün xərclənəydi...

Bu yaxınlarda cəbhə bölgəsinə getmişdik. Rayon mərkəzindən başlayaraq ön cəbhəyə qədər olan təqribən 10 km-lik yol bərbad vəziyyətdə idi. Heç olmasa daş-çınqıl da döşənməmişdi. Biz ki, burada qonaq deyilik, niyə yol çəkmirik? Sabah, inşallah, torpaqları ala-ala Xankəndinə getməyəcəyikmi? Onda yolun çəkilişini də davam etdirərik.

Bizim xaricdə, ya daxildə yaşayan oliqarxlar Qarabağ üçün nə qədər yatırım qoyub bilən varmı? Bəlkə hansısa biri yol, qaz, işıq çəkib? Bütün məsələləri dövlətdən tələb etmək bəlkə də insafsızlıqdır. Katibəsinə milyonluq villa bağışlayan oliqarx niyə Silahlı Qüvvələrə Yardım Fonduna 50 manat köçürməyi düşünmür?

Məsələn, amerikalı erməni milyonçu Narek Arutyunyan Kəlbəcərdə öz vəsaiti hesabına ermənilər üçün kənd salmışdı. Kerkor Kerkoryan "Artsax" Fnduna milyonlarla dollar yardım edib, buna görə də Ermənistanın milli qəhrəmanıdır. Erməni əsilli argentinalı milyonçu Eduardo Ernekyanin Xankəndi aeroportuna təyyarə bağışlamasını da bura əlavə edək. Azərbaycanda, ondan kənarda böyük pullara sahiblənənlərimiz var, amma...

Əslində gərək dövlət səviyyəsində bir qərar qəbul olunaydı ki, milyonlara sahib olan, bu ölkədə sərvətlər toplayan hər kəs Qarabağın azadlığı naminə öz töhfəsini versin. Sabah inşallah Qarabağ azad ediləndə İsa bulağı ətrafında, Cıdır düzündə həmin bu milyonçuların gözü olacaq şübhəsiz ki. Elə isə niyə Qarabağın azadlığı üçün öz tərəflərindən addım atmamalıdırlar? Qoy birisi Qarabağa gedən yolun çəkilməsini öz üzərinə götürsün, başqası ayrı problemi həll etsin ki, sabah da işğaldan azad olunmuş Qarabağda iş görmək üçün dilləri uzun olsun.

Bu gün düşmənlə haqq-hesab zamanıdır, "Dostluq" parkı ilə yox. Şuşanın azadlığı üçün pul xərcləmək lazımdır. Əminəm ki, orda tikiləcək villanı heç bir hakimiyyət sökməyəcək. Əksinə, Qarabağ üçün pul xərcləyənlər adla deyiləcək. Nə qədər utopik görünsə də, lap oliqarxlar arasında Qarabağı indidən bölüşdürmək də olar, yeni torpaqlar azad olunandan sonra bərpa işlərini kimlərin şirkətləri həyata keçirəcək şəklində...



# Blatter yaxşıdır, ətrafı - nadürüst

Samir SARI

**YAP funksionerlərinin əlinə yaxşı fürsət düşüb, indi onlar tam cəsarətlə və ağız dolusu deyə bilərlər: "Gördünüzmü, biz deyəndə ki, korrupsiya bütün dünyada var, inanmırdınız, bu da sizin tərifli Avropanız, tərifli FİFA-nız, 10 korrupsioneri birdən tutublar".**

Bəli, onlar belə desələr haqlı görünəcəklər. Çünki doğrudan da korrupsiya hər yerdə var. Məşhur bir pritçada deyildiyi kimi, ağzı olan yemək istəyəcək. Bu insani hiss qitəyə, materikə, asxipelaqa baxmır. Tamahkar adam görəndə ki, nəyisə basıb yeyə bilər və cəzadan qurtula bilər, mütləq qadağan olunmuş meyvənin dadına baxmaq istəyəcək. Yox, o bilsə ki, yediyini, iyrənclik kimi çıxmasın, qusduracaqlar, qələt edər, yeməz, aza qana olar, başının salamatlığını istər.

Korrupsiya ən çox o ölkələrdədir ki, orda cəzasızlığa inam böyükdür. Cəzasız qalacağına əmin olandan sonra niyə yeməyəsən - düşüncə budur. Görünür, FİFA-da da elə düşünürmüşlər.

Budur, ABŞ FTB-sinin əli torbalı işçiləri gəlib FİFA-nın məsul şəxslərini kənd beçəsi kimi ciləkləyərək ABŞ-a aparıblar və indi onları, türkün sözü, yolsuzluqda, yəni korrupsiyada ittiham edirlər.

Bilirsiniz, dünyanın ən varlı-hallı təşkilatlarından biri də FİFA-dır. BP, "Statoyl", "Qazprom", "Mikrosoft" kimi bir şeydir, hesablarında milyardlar dolanır.

Belə aydın olur ki, FTB əməkdaşlarının Sürixdə həbs etdiyi 10-a yaxın FİFA məmuru həmin o milyardlardan bir hissəsinə, "bal tutan barmaq yalar" devizi ilə tamah salıblar, ona görə tutulublar.

Özü də tutulanların bir neçəsi elə-belə adamlar deyil, "futbol oliqarxları"dır, məsələn, FİFA İcraiyyə Komitəsinin vitse-prezidentləri Cefri Uebb və Euhinio Fiqeredo da tutulanların arasındadır.

O da aydın olur ki, FİFA prezidenti Yozef Blatter özü yaxşıdır, sadəcə, ətrafı pis imiş.

Hərçənd neçə ildir ki, onun da üzünə duranlar var, deyirlər, Blatter dünyanın ən yekə korrupsionerdir, bütün maxinasiyaların başında, arxasında özü durur. Amma bunu sübut edən, edə bilən yoxdur.

Məsələn, 2018 mundialının Qətərə salınmasının rüşvət hesabına başa gəldiyini iddia edənlər var və bu barədə dünyanın ən nüfuzlu qəzetlərində iddialar dərc olunub, amma FTB Blatterə bir söz demir, gedib onun müavinlərini tutur.

Biz belə filmləri öz ölkəmizdə çox görmüşük. Bizdə də korrupsiya ilə gecə-gündüz mübarizə aparan qurumlar adətən rəisləri, baş direktorları, cürbəcür müdirləri bir kənara qoyub, onların müavinlərini tuturdular.

Hər dəfə məlum olurdu ki, nə işdirsə, bu ölkədə rəislər, direktorlar, müdirlər saf, təmiz, kristal, dürüst insanlardır, amma onların müavinləri yaramaz, əliəyri, nadürüst, rüşvətxor və korrupsionerdirlər. Bir dəfə də başqa cür olmadı. Yəni müavin qalsın, rəis tutulsun - olmadı.

Bir ara xəstəxanalarda, məktəblərdə aşağı işlərdə çalışanları da korrupsioner adıyla tuturdular. Açıqlanırdı ki, adam qulluq mövqeyindən istifadə edərək, kimdənsə 50 manat pul alıb. Bu o vaxtlar idi ki, tenderlərdə milyard dollarlıq layihələr udulurdu, iri layihələr həyata keçirilirdi və 50 milyondan 500 milyona qədər mənimsəmələr olurdu. Onlara dəyib-toxunan yox idi, əvəzində "xalturşik"ləri korrupsioner adıyla basırdılar içəri. Sonradan yaxşı ki, antikorrupsiya kampaniya səngidi, ta heç kimi belə işlərə görə tutmadılar, yəni tutqu kütləvi şəkildə olmadı. İndinin özündə də hərdən yenə ilişən olur.

Bu səbəbdən dəli şeytan deyir ki, Blatterin idarəsindəki tutqu məsələsinin halallığına inanma. Burda nəsə bir iş var.

İndi gözləyirəm ki, ya Cefri Uebb, ya da Euhinio Fiqeredonun vəkili mediaya çıxıb deyəcək ki, müdafiə etdikləri şəxsə FTB-nin "podval"ında işgəncə verirlər, korrupsioner olduqlarını döyə-döyə boyunlarına qoymaq istəyirlər. Olmazmı? Bal kimi olar. Barmaq yalayan balçıların pətəyini yalamaq istəyənlər də hər ölkədə var.

Belə bir şey olsa, YAP sözçüləri yenə də "gördünüzmü" ritorik sualı ilə cümlə başlaya bilərlər: "Bu da tərifli Amerikanız. Şübhəli şəxs qismində saxlanılan şəxsə işgəncə verirlər. Sonra da insan haqlarından danışırlar" və s.

Gözləyək, görək, nə olur. Gərək AFFA rəhbərliyi Blatterə məktub göndərəndə belə bir cümlə də yazsın: "Allah müavinlərinin qapısını açsın, cənab Blatter".

# GünAz TV-nin Bakı studiyasının rəhbərinin evinə basqın edildi

## Araz Obalını ölümlə təhdid edən, döyən naməlum şəxslər onun mənzilində qiymətli nə varsa aparıb; DİN-dən reaksiya gəldi

**Bakıda güney azərbaycanlı fəal, GünAz TV Bakı studiyasının rəhbəri Araz Obalının (Əlirza Yusifi) evinə basqın olub. Özlərini kabel internet televiziyasının əməkdaşı kimi təqdim edən iki naməlum şəxs kirayədə yaşayan Araz Obalını döyərək təxminən 5000 manat pul, mobil telefon, 2 ədəd noutbuk, bir qızıl üzük, bankomat kartı, maşın açarı və hələlik dəqiqləşməyən bir çox qiymətli əşyalar aparıblar.**

A.Obalı zərərçəkən şəxs kimi mayın 25-i saat 20 radələrində baş verən hadisə ilə bağlı GünAz TV mətbuat mərkəzinə bunları deyib: "Mən evə gələrkən liftdən çıxdığım zaman blokda iki şəxslə rastlaşdım. Onlar məni görüncə özlərini kabel internet televiziyasının əməkdaşı kimi təqdim edib və mənə yaxınlaşaraq dedilər ki, internet istəyirsən? Mən onlara "xeyir" cavabı verib və qapıya yaxınlaşdım. Evə daxil olduqdan sonra qapını bağlamaq istədiyim zaman qəflətən evə soxuldular. Evə soxulan naməlum şəxslər başıma tapança tuşlayıb məni təhdid etdilər. Onlar ilk öncə başıma tapançanın qundağı ilə zərbə vurduqdan sonra məni boğmağa çalışdılar. Bu arada onların 3 nəfər olduğunu hiss etdim. Bundan sonra məni divana tərəf sürüyüb və orada boğmağa çalışdılar. Üzümə yastıq qoyub hədə-qorxu ilə dedilər ki, səsini çıxartma!"

**A.Obalı deyib ki, bundan sonra onlar evi axtarmağa başlayıb:** "Onlar evin hər yerini axtarıb nə varsa, ortalığa tökdülər. Bu arada mənə dedilər ki, "biz sənin burada tək olduğuvu bilirik, səsini çıxartma, öldürərik, qanın batar. Biz gedəndən sonra polisə xəbər verməməlisən, əks halda, səni öldürəcəyik". Onlar istədiklərini almaq üçün mənə qarşı hədə-qorxu gəlib ağır zərbələr vurmağa davam etdilər. Qolumu "skoç"la bağlayıb belimə ağır zərbələr endirdilər. Bir tərəfdən də ağzıma yastıq qoyub sıxırdılar. Mən nəfəs ala bilmədiyimdən boğulmaq və huşdan getmək üzrə idim. Vəziyyəti çətinliklə çatdıra bildim və ölmək üzrə olduğumu bildirdim, onlar isə yastığı bir az buraxdılar və mən bundan sonra çətinliklə də olsa, nəfəs ala bildim. Onlar isə davamlı olaraq məni susmağa məcbur edirdilər. Məndən pul tələb edib evi dönə-dönə axtardılar. Sonda təxminən 5000 manat pul, 1 mobil telefon, 2 ədəd noutbuk, bir qızıl üzük, bankomat kartı, maşın açarı və hələlik dəqiqləşdirmədiyim bir çox qiymətli əşyalar götürdülər. Bundan sonra ayaqlarımı və ağzımı da bağlayıb və getdilər. Mənə dedilər ki, 15 dəqiqə sonra durarsan".



Araz Obalı

**Güneyli fəal ardınca bunları söyləyib:** "Mən əl-ayağı və ağzı bağlı şəkildə qaldım və balkona tərəf sürünməyə başladım. Sonra ətrafdakı insanlara bağıraraq yardım istədim. 10-15 dəqiqə sonra qonşular polisə xəbər verdi və sonra yardıma gəldilər. Hadisə yerinə gələn polis bir sıra suallar soruşub və hadisə ilə bağlı araşdırmalar başlatdı". A.Obalı həmçinin bildirib ki, evə basqın edənlərin sifəti ona tanış gəlib və onun zənnicə, basqınçılar belə bir basqını törətmək üçün planlı şəkildə fürsət axtarıblar. Lakin bundan öncə evdə digər şəxslər olduğuna görə basqınçılar üçün əlverişli fürsət yaranmayıb. Hadisədən sonra ağır vəziyyətdə olan A.Obalı xəstəxanaya çatdırılıb. Onun ağız və dodaq nahiyəsinə çoxlu tikiş vurulub. Zərərçəkənin üz nahiyyəsi, xüsusi ilə də burun və dodaqları şişib və başı zədələnib. O, hazırda aldığı zərbəyə görə belinin kəskin ağrıdığını bildirir.

**Günaz.TV-dən bildiriblər ki, A.Obalının evinə olan basqın barəsində bir çox ehtimal üzərində durmaq olar:** "Onun GünAz TV-dəki fəaliyyəti və GAMAC-a (Güney Azərbaycan Milli Azadlıq Cəbhəsi) üzv olduğunu da nəzərə aldıqda, hadisənin sifarişli şəkildə baş verməsi istisna deyil. A.Obalı GünAz TV mətbuat mərkəzinə verdiyi açıqlamada hadisənin şübhəli olması ilə bağlı xüsusi məlumat verməsə də, onu rədd etməyib".

DİN-in mətbuat xidmətinin əməkdaşı Orxan Mansurzadə "Yeni Müsavat"a bildirdi ki, rəsmi müraciət əsasında polis zəruri tədbirlər həyata keçirəcək və günahkarlar məsuliyyətə cəlb olunacaq.

❑ E.PAŞASOY

# Sahibkar vətəndaşlıqdan imtina edir

## Gürcüstanda aksiya keçirən iş adamının əlindən daha bir marşrut xəttini də alıblar

**İki gün öncə "Amal-D" MMC şirkətinin rəhbəri Məmmədov Dönməz Abutalıb oğlunun Azərbaycanda ona edilən təzyiqlər səbəbindən ölkəni tərk edib, Gürcüstana gəlməsi və orada aclıq aksiyasına başladığı haqda məlumat verməşdik.**

Yazının "Yeni Müsavat" qəzetində dərc edilməsinin ardından Dönməz Məmmədov adlarını çəkmək istəmədiyi dövlət məmurları tərəfindən ölkəyə dəvət olunub və ona problemlərinin həll ediləcəyinə dair söz verilib. Dönməz Məmmədov ölkəyə qayıtdıqdan sonra onun şirkətinə məxsus Bakı-Saray-Sumqayıt xətti üzrə işləyən 501 nömrəli marşrut avtobusları Nəqliyyat Departamentinin cərimə meydançasından buraxılıb, sürücülər eyni xətt üzrə fəaliyyətlərinə davam ediblər. Bir sözlə, Dönməz Məmmədovun şikayəti təmin olunub və 501 nömrəli marşrut xətti bərpa edilib: "Mənim şikayətlərim təmin olundu, marşrutu bərpa etdilər və mənim əvvəlki kimi işlərim gedir. Bunun üçün "Yeni Müsavat" qəzetinə təşəkkür edirəm.




İnsanların problemini dinləyib, onların həllinə yardımçı olduğunu üçün çox sağ olun".

**Amma sahibkara bu dəfə başqa problem yaradılıb. Şikayətçi bildirdi ki, o, Gürcüstanda olarkən onun şirkətinə məxsus başqa bir marşrut xəttini əlindən alıb başqa sahibkara veriblər:** "Təəssüflər olsun ki, mənim şirkətimin istismarında olan 509 nömrəli marşrutu 4 gün əvvəl, mən Gürcüstanda aclıq aksiyası keçirdiyim zaman başqa bir şirkətə veriblər. Mənim şirkətimin 2017-ci ilə qədər Sumqayıt şəhər avtovağzalından Binə ticarət mərkəzinə qədər olan bu xətt üzrə işləmək üçün lisenziyası var. Avtobuslar da təzə avtobuslardır, 8 avtobus bu xətt üzrə işləyirdi. İndi onlar Sumqayıt avtovağzalına buraxılmır. Sumqayıt avtovağzalının işçiləri və Bakı Şəhər Nəqliyyat Departamenti mənim şirkətimə məxsus avtobusları avtovağzala girməyə qoymayıb. Kənar şirkətin maşınlarını isə avtovağzala buraxırlar. Onu da deyim ki, 509 nömrəli marşrutun sərnişinlər də yeni şirkətin avtobuslarından narazıdır. Bizim avtobuslar daha geniş idi. Mən anlamıram ki, bu cür özbaşınalıq kim tərəfindən edilir, mənim xəbərim olmadan şirkətimə məxsus olan marşrut başqa bir iş adamına necə verilə bilər?"

**Dönməz Məmmədov bununla bağlı ölkə başçısına müraciət etdiyini və vətəndaşlıqdan imtina etməyə qərar verdiyini bildirdi:** "Ölkə başçısına müraciət etmişəm. Bir Qarabağ qazisi və sahibkar kimi Nəqliyyat Departamenti tərəfindən çıxılmaz vəziyyətə salındığım üçün Azərbaycan vətəndaşlığından imtina edirəm. Nəqliyyat Departamenti cavab vermir ki, bu özbaşınalığı kim həyata keçirib".

Qeyd edək ki, "Amal-D" MMC-yə məxsus Bakı-Saray-Sumqayıt xətti üzrə işləyən 501 nömrəli marşrutun sahibi Məmmədov Dönməz Abutalıb oğlu bir neçə gün öncə "Yeni Müsavat"ın redaksiyasına şikayət edərək, şirkətin avtobuslarının Bakı Şəhər Nəqliyyat Departamenti tərəfindən cərimə meydançasına aparıldığını, özünün də buna etiraz edərək Gürcüstan Respublikasının ərazisinə keçib aclıq aksiyasına başladığını bildirmişdi. Xəbər verdiyimiz kimi, sahibkar hazırda Azərbaycandadır və bu problem artıq həllini tapıb. İndi həmin şirkətə məxsus digər bir marşrut xəttdən çıxarılıb və başqa bir sahibkara verilib.

**Mövzu ilə bağlı tərəflərin mövqeyini dərc etməyə hazırıq.**

❑ Nərgiz LİFTİYEVA

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 115 (6143) 28 may 2015



# Bakı Avropa Oyunları ərəfəsi hərbi hazırlıqları gücləndirib

## Azərbaycanda müharibə vəziyyətinə yaxın elementlərlə keçirilən təlimlərin pərdəarxası; Moskvadakı son nəticəsiz Qarabağ müzakirələri silahlı qüvvələrimizin peşəkarlığını daha da artırmağı diktə edir; müdafiə naziri Zakir Həsənov: "Ordumuz döyüşə hazırdır..."

**Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovun Rusiyaya səfəri və səfər çərçivəsində bu ölkənin yüksək çinli rəsmiləri apardığı müzakirələrdə Dağlıq Qarabağ məsələsi gözlənildiyi kimi, ön planda oldu. Lakin siyasi ekspertlər həm Məmmədyarovun, həm də onun rusiyalı həmkarı Sergey Lavrovun bu mövzuda verdikləri açıqlamaları ehtiyatlı şəkildə şərh edirlər.**
**Məsələn, Qərb Universitetinin professoru, politoloq Fikrət Sadıqovun fikrincə, Azərbaycan və Rusiya xarici işlər nazirləri arasında Moskvada baş tutan danışıqlar zamanı ola bilsin, münaqişə ilə bağlı Böyük Sülh Sazişinin imzalanmasının başlanğıcı qoyulsun ("Trend").**

**Bununla belə, politoloq hesab edir ki, Moskvanın öz hərbi-siyasi tərəfdaşı Ermənistana təzyiq göstərməsi çox əhəmiyyətli məsələdir:** "Əks təqdirdə, hansısa siyasi nəticə gözləmək, sadəcə, məntiqsiz olacaq. Hər halda, Bakı ilə Moskva arasında qarşılıqlı anlaşma baxımından müəyyən irəliləyiş hiss olunur. Rusiya regionda Azərbaycanın əsas oyunçu, vacib tərəfdaş kimi dəyərini başa düşür".

**Politoloqun sözlərinə görə, Azərbaycan XİN başçısının rusiyalı həmkarı ilə görüşü prinsipcə Azərbaycan-Rusiya əlaqələrinin cari formatına uyğundur:** "Bu münasibətlər bu gün o cəhətdən səciyyəvidir ki, bir çox sahədə əməkdaşlığın yaxşı dinamikası var və hər iki ölkə bu münasibətlərin dövlət maraqlarına cavab verməsini istəyir. Aydındır ki, Azərbaycan üçün Dağlıq Qarabağ münaqişəsi əsas problem olaraq qalır və bu bir reallıqdır ki, Ermənistanın əsas hərbi-siyasi tərəfdaşı Rusiyadan çox şey asılıdır. Bunu nəinki Bakı, başqa Avropa dövlətlərinin paytaxtları, həmçinin Moskva da yaxşı başa düşür. Bu baxımdan Azərbaycan rəsmilərinin səfərləri və Rusiya siyasi elitası ilə danışıqlar aparması böyük əhəmiyyət kəsb edir".

**F.Sadıqov həmçinin bildirib ki, Azərbaycan və Rusiya Xarici İşlər nazirliklərinin rəhbərlərinin görüş formatı ikitərəfli əlaqələrdə ən çətin problemlərin nizamlanmasını nəzərdə tutan əvvəlki diplomatik formatdır və bu səfərin daha bir əhəmiyyəti ondan ibarətdir ki, görüş "Şərq tərəfdaşlığı"nın Riqa sammitindən dərhal sonra baş tutub:** "Sammitdə Azərbaycan açıq-aydın öz mövqeyini göstərdi, bəyannamədəki bəzi müddəalarla əlaqədar narazılığını bildirdi və müstəqil mövqe sərgilədi. Azərbaycan nümayiş etdirdi ki, onun siyasi kursu müstəqil və azaddır, dövlətin xarici siyasi fəaliyyətində ölkənin ərazi bütövlüyü əsas problemdir. Düşünürəm ki, Moskvada bunu eşitdilər, yaxşı başa düşdülər və indi nəticə çıxarmalıdırlar. Bu, Qarabağ problemində irəliləyiş üçün əsas məsələdir".

*****

**Öz növbəsində MDB Ölkələri İnstitutunun sədr müavini Vladimir Jarixin güman edir ki, Qarabağ məsələsində Lavrovun ifadə elədiyi nikbinlik tərəflərin problemin nizamlanması yolunda müəyyən addımlar atmağa hazır olması ilə əlaqədardır:** "Problemin həlli üçün siyasi iradə, irəliləyiş üçün münaqişə tərəflərinin siyasi hazırlığı olmalıdır və deyəsən, indi az da olsa, hər iki tərəfin siyasi elitasında bu cəhətlər yaranmağa başlayır".

Ekspertin fikrincə, bu münaqişənin nizamlanmasında irəliləyiş əldə etmək üçün müəyyən ilkin şərtlər var, lakin çətin ki, bu ilkin şərtlər dərhal problemin həllinə gətirib çıxarsın. Jarixin əlavə edib ki, Moskva Dağlıq Qarabağ münaqişəsinin həllində həmişə maraqlı olub, belə ki, Rusiya həm Azərbaycan, həm də Ermənistan ilə dost münasibətlidədir və artıq bir neçə ildir ki, məhz bu ölkə münaqişə tərəflərinin prezidentlərinin danışıqlarında fəal vasitəçi rolunu oynayır.

**Politoloqun sözlərinə görə, Rusiya müəyyən vaxta kimi, tərəflərin irəliləyişə hazır olduğunu və problemin həllinə imkan yaradacaq həmin kompromisi görməyib:** "Rusiya danışıqlar meydanı təklif etməklə belə kompromislərin əldə edilməsi üçün əlindən gələni edir. Bundan başqa, Moskva Minsk Qrupunun həmsədr ölkələrinin ümumi mövqelərini müəyyənləşdirməklə həmsədr kimi aktiv şəkildə fəaliyyət göstərir. Yeri gəlmişkən, bu mövqelər Moskvanın maraqlarını tamamilə əks etdirmir. Avropa Birliyi, ABŞ və Rusiyanın mövqeləri çox nadir halda üst-üstə düşür. Qarabağ münaqişəsi belə nadir hallardan biridir. Ancaq Kreml hesab edir ki, ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin vahid mövqeyi Moskvanın maraqlarının bu mövqeyə uyğun gəlməsindən daha vacibdir".

******

Ancaq sərt reallıq belədir ki, konfliktin həllində əsas maneə Rusiyanın digər həmsədr dövlətlərlə uzlaşmayan maraqları deyil, Rusiyanın öz maraqlarıdır. Ona görə ki, Qarabağ ixtilafı da daxil, postsovet məkanındakı bütün etnik-ərazi münaqişələrinin arxasında məhz Rusiyanın dayandığı bəllidir. Krımın işğalı göstərdi ki, Moskva bu münaqişələri nəinki çözməyə hazırlaşmır, üstəlik, Donbas timsalında yenilərini yaratmağa meyllidir.

O üzdən Azərbaycan tam haqlı olaraq öz ordusunu, onun döyüş qabiliyyətini artırmada davam edir. Bu vasitələrdən biri də hərbi təlimlərdir. Hazırda da Silahlı Qüvvələrin birlik, birləşmə və bölmələrində döyüşə hazır vəziyyətin yoxlanılması məqsədilə əməliyyat-taktiki, taktiki və taktiki-xüsusi intensiv təlimlər keçirilir.

Belə ki, Müdafiə Nazirliyinin saytının verdiyi xəbərə görə, bütün səviyyələrdə motoatıcı, tank və digər qoşunlar arasında qarşılıqlı əlaqənin yaradılması və döyüş tapşırıqlarının yerinə yetirilməsi məqsədilə keçirilən təlimlər istənilən hava və iqlim, çətin və ağır relyef, o cümlədən gecə və məhdud görmə şəraitində döyüş atışları ilə tam müharibə vəziyyətinə yaxın elementlərlə icra olunur.



Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, keçirilən təlimlərə qatılan birləşmə və bölmə komandirləri qoşunların idarə olunmasını, şəxsi heyət isə silahların düzgün tətbiqi, döyüş texnikasının istismarı bacarığı və vərdişlərinin artırılması üzrə tapşırıqları müvəffəqiyyətlə yerinə yetirirlər. Şəxsi heyətin əldə edəcəyi bilik və bacarıqlar gələcək döyüş fəaliyyətlərində məharətlə tətbiq olunacaq.

Bu təlimlər xüsusilə də yaxınlaşan I Avropa Oyunlarının təhlükəsizliyinin təmin olunması baxımından da önəm kəsb edir və erməni tərəfini təxribatlardan çəkindirmək üçün yeqin ki, həm də qardaş Türkiyə ilə birgə davam etdiriləcək.

*****

Müdafiə naziri Zakir Həsənovun 28 mayla bağlı silahlı qüvvələrin şəxsi heyətinə göndərdiyi təbrik məktubundan buna bir daha əminlik hasil eləmək olar. Nazir müraciətdə ordumuzun döyüşə hazır olduğunu bəyan edib.

**Məktubda deyilir: "Yoldaş zabitlər, gizirlər, miçmanlar, çavuşlar, əsgərlər və matroslar! Sizi 28 May - Respublika Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.**

**Azərbaycan Xalq Cümhuriyyətinin yaranması respublikamızın tarixində ən əlamətdar hadisələrdən biri olmaqla xalqımızın azadlıq, müstəqillik arzusu ilə yaşaması əzmini bir daha nümayiş etdirib... Ali Baş Komandanımızın Silahlı Qüvvələr qarşısında qoyduğu mühüm vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində ordumuzun döyüşə hazırlıq səviyyəsi, döyüş qabiliyyəti və şəxsi heyətin vətənpərvərlik ruhu dinamik surətdə intensiv olaraq artmaqdadır. Bir neçə gündən sonra Azərbaycanda keçiriləcək ilk Avropa Oyunları ölkəmizin beynəlxalq aləmdə nə qədər böyük nüfuza malik olduğunun və respublikamızın tərəqqisinin təzahürüdür. İnanıram ki, Siz Azərbaycan Konstitusiyasına, "Hərbi and"a və nizamnamələrə bundan sonra da sadiq qalacaq, döyüş və ictimai-siyasi hazırlıqda yeni uğurlar əldə edəcək və Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi altında üçrəngli dövlət bayrağımızı işğal altındakı əzəli və əbədi torpaqlarımızda dalğalandıracaqsınız".**

# "Qızıl Xaç" əməkdaşları Dilqəm və Şahbazla görüşüblər



Şahbaz Quliyev    Dilqəm Əsgərov

**Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) əməkdaşları Kəlbəcərdə ermənilər tərəfindən girov götürülmüş azərbaycanlılara baş çəkiblər. BQXK-nın Azərbaycan nümayəndəliyindən bildirilib ki, görüş mayın 25-də baş tutub.**

"Qızıl Xaç" nümayəndələri Dağlıq Qarabağda saxlanılan azərbaycanlılara ailə məlumatlarını çatdırıb, onlardan da ailələri üçün məlumat alınıb.

Xatırladaq ki, ötən ilin iyul ayında Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən işğalçı qüvvələr tərəfindən girov götürülüblər, digər Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb. Xankəndində D. Əsgərov və Ş. Quliyev üzərində qanunsuz saxta məhkəmənin qərarı ilə Əsgərov ömürlük, Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilmə cəzasına məhkum olunub.

# Sənətçi dostlarından Röyaya dəstək

## Adı "razborka"da hallanan müğənni açıqlama verdi, amma o, xaricə qaçması haqda məsələyə aydınlıq gətirmədi

**Artıq bir neçə gündür ki, güc strukturlarından cəzalandırılması tələb edilən tanınmış müğənni Röya Ayxana sənətçi dostları dəstək olublar. Müğənni Niyam Salami aralarında yaranan soyuqluğa rəğmən hər zaman Röyanın yanında olacağını bildirib. Bu barədə "Yeni Müsavat"a danışan müğənni sənətçiləri təhqir edən şəxsləri qınayıb:**



"Sənətçi haqqında bu cür təhqirlərə yol vermək olmaz. Röya hər birimizin dostu, ezizidir. Onu yaxından tanıyan insan kimi deyə bilərəm ki, o həmişə çalışır ki, öz problemlərini özü həll etsin. Bu məsələdə də istəyib ki, söhbəti özü bağlasın. Lakin gördüyünüz kimi, məsələ bu həddədək gəlib çatıb. Gəlin unutmayaq ki, bu problem hər kəsin başına gələ bilər. Buna görə bir daha bildirirəm ki, bu məsələdə sonadək Röyanın yanında olacayıq".

**Əməkdar artist Elza Seyidcahan həmkarına dəstək olduğunu desə də onun bu hərəkətinə bəraət qazandırmadığını gizlətməyib:** "Bu yaxınlarda facebook sosial şəbəkəsindəki səhifəmdə məni də ağır təhqir etmişdilər. Oğlum bundan bərk əsəbləşmişdi. Lakin mən tez bir zamanda bu barədə polisə müraciət edib şikayət ərizəsi yazdım. Polis məni təhqir edən şəxsi tapdı və o, məndən üzr istəyərək bildirdi ki, bir daha belə xətaya yol verməyəcək. Əgər vaxtında məsələni bu yöndə həll etməsəydim, yəqin indi çox pis hadisələrə yol açacaqdı. Çünki oğlum məsələyə özü qarışmaq istəyirdi. Əgər Röya da polisin vasitəsilə məsələni həll etməyə çalışsaydı, belə olaylar baş verməzdi. Buna baxmayaraq, aidiyyəti orqanlardan xahiş edirəm ki, bu məsələni çox da qabartmasınlar. Röya təhqirlərə dözməyib və səbr kasası daşıb. Bunu nəzərə alaraq gözəl sənətçimizə güzəşt edilsin. Biz sənətçilər tez-tez sosial şəbəkələrdə təhqirlərə məruz qalırıq. Araşdıranda görürük ki, həmin şəxsləri kimlərsə öyrədir. Əslində bu cür olayları yaradanlar bizi sevməyən, sənətimizə, uğurlarımıza paxıllıq edən şəxslərdir ki, onlar da kimlərinsə əli ilə bizə zərbə vurmağa çalışırlar".

**Xalq artisti Könül Kərimova isə sənətçiləri təhqir edən şəxsləri "insanlıqdan kənar məxluqlar" adlandırıb:** "Röyanın başına gələnləri eşidəndə çox pis oldum. Məgər Röya kimi sənətçini təhqir etmək olar?! Röya xalqın, millətin sevgisini qazanan tək-tək müğənnilərdəndir. Neçə-neçə böyük sənətkarlarımız var ki, onlar kifayət qədər titullar alsalar da Röya qədər xalqın sevgisini qazana bilməyib. İnanıram ki, ən azından onun sənəti ona bu çətin anlarında kömək olacaq. Röya güclü qızdır, bunun da öhdəsindən gələ biləcək. Son zamanlar sosial şəbəkələrdə sənətçiləri təhqir etmək bir növ dəb halını alıb. Bu da onun göstəricisidir ki, bizim kimi sənətçilərə kifayət qədər hörmət edilmir. Sənətçiləri təhqir edənləri insanlıqdan kənar məxluq adlandırıram. Nə yazıq ki, bu cür insanlar etdiklərinə görə utanmaqdansa, əksinə, əməllərindən zövq alırlar".

**Xalq artisti özünün də tez-tez təhqir olunduğu barədə danışıb:** "Bəzən haqsız yerə elə təhqirlərlə qarşılaşıram ki, deməyə söz tapmıram. Belə hallarda özümü o qədər pis hiss edirəm ki, bunu həmkarlarım daha yaxşı anlayar. Bugünlərdə "İnstagram" səhifəmdə mənə qarı çox böyük haqsızlıq edərək haqqımda təhqiredici rəylər yazıldı. Onu yazan şəxsin səhifəsinə girib haqqında araşdırma aparanda gözlərimə inanmadım. Həmin şəxs qucağında körpəsi olan xanım idi. Hiddətlənib ona yazdım ki, "mənə qarşı haqsız təhqirlər edəndə körpəndən utanmadın?!" Bundan başqa əlimdən nə gələrdi ki? Ona görə hər zaman deyirəm ki, biz sənətçilərin bir üzü güləndə biri üzü ağlayır".

**Qeyd edək ki, Röya Ayxan dünən "İnstagram" səhifəsində ona qarşı edilən ittihamlara cavab yazıb:** "Buradan hər kəsə səslənirəm. Gedin, öz vedrənizə sahib olun. "Sən kim idin, ay Röya" deyənlərə səslənirəm. Röya məgər insan deyildi? Yoxsa dilənirdi adam etdiniz? Yoxsa bədənini satırdı, düz yola gətirdiniz? Mərdi qova-qova namərd edənlər, siz məni gözdən sala bilməzsiniz, çünki məni Allah qaldırdı. Hər kim oldumsa, mənim həyatımdı. Müzakirə etmək sizə düşməyib".

**Röya jurnalistlərə də müraciət edib:** "Buradan media əhlinə səslənirəm. Özünüzə sənət tapın, yaxşı jurnalistlərin adını yerə vurmayın. Hələ çox uzun yolumuz var birlikdə. Hər kim oldumsa, mənim həyatımdı. Sizə düşməyib müzakirə. Öz arxanıza baxın. Önümüzü görmək çox asandır".

**Röya "Instagram"da onu təhqir edən şəxslə bağlı da fikrini bildirib:**

"Həməniz bir şey dediz, amma o uşaq zənn etdiyimdən fərqli çıxdı. Yenə də sağ olsun. Günahkar onlar idi, lentə almaqda məqsədim o idi ki, sonra gedib deyər məni təhqir edib. Bir dəfə biriylə görüşdüm, getdi şikayət yazdı ki, Röya üstümə silah çəkib. Mən də onunla ehtiyatla və tərbiyəylə görüşüb lentə aldım. Hamı yekə-yekə danışır. Unudursuz, mən də kiminsə bacısı, anasıyam, həm də nəslin kişisiyəm. Bütün mediaya sözüm olacaq, amma indi yox. Məhz siz mənimlə bir yoldasınız, nə vaxtsa üz-üzə gələcəyik. Yenə də qarşıma səsyazmayla çıxacaqsınız. Eybi yox, Allah özü məni möhkəm tutub, heç kimə də baş əydirməyib. Bundan sonra kim təhqir yazsa, qanun qarşısında cavab verəcək. Daha ürəyiyumşaqlıq etmərəm".

**Xatırladaq ki, yayılan məlumatlara görə, Röya olaylardan sonra prodüseri ilə birlikdə ölkədən qaçıb. Amma müğənni açıqlamasında bu barədə danışmayıb .**

❑ **Xalidə GƏRAY**

# Sumqayıtda avtobus "KamAZ"la toqquşdu



**Mayın 27-də səhər saatlarında Bakı-Quba yolunun Sumqayıtdan keçən hissəsində dəhşətli qəza baş verib. Xeberle.com xəbər verir ki, Sumqayıtdan Hacı Zeynalabdin qəsəbəsi istiqamətində hərəkət edən marşrut avtobusu "KamAZ" markalı yük maşını ilə toqquşub. Toqquşma nəticəsində marşrut avtobusun ön hissəsi deformasiyaya uğrayıb.**

Dəhşətli qəza nəticəsində ağır yaralıların olduğu bildirilir. Hadisə yerinə Sumqayıt Şəhər Polis İdarəsinin əməkdaşları gəlib. Qəzanın baş vermə səbəbləri ilə bağlı araşdırma aparılır.



# Azərbaycanda ömürlük həbs cəzası alanların sayı açıqlandı

**Ötən il Azərbaycanda birinci instansiya məhkəmələrində 13342 nəfər cinayət məsuliyyətinə cəlb edilib. Dövlət Statistika Komitəsindən publika.az-a verilən məlumata görə, 7347 nəfər müəyyən müddətə azadlıqdan məhrum edilib. O cümlədən 3200 nəfər 2 ilə, 2428 nəfər 2 ildən 5 ilə qədər, 1389 nəfər 5 ildən 10 ilə qədər, 330 nəfər 10 ildən 15 ilə qədər azadlıqdan məhrum edilib.**

131 nəfər ictimai işlər üzrə, 1972 nəfər islah işləri ilə cəzalandırılıb. İntizam xarakterli hərbi hissədə saxlanılanlar 175 nəfərdir. 2408 nəfər cərimələnib, 1293 nəfər isə şərti məhkum olunub. 3 nəfər müəyyən vəzifə tutma və müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilib. 21 nəfər haqqında xroniki sərxoşların məcburi müayinəsi qərarı verilib.

Ötən il verilən məhkəmə qərarlarına əsasən, 13 nəfər ömürlük azadlıqdan məhrum edilib. Qeyd edək ki, ümumilikdə 1998-2014-cü illər ərzində ömürlük azadlıqdan məhrum edilənlərin sayı 246 nəfərdir.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

*** Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
*** Cinsi marağın** və **cinsi aktların** azalması
*** Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
*** Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
*** Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
*** Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
*** Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
*** Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
*** Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
*** Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
*** Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
*** Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
*** Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
*** Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
*** Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
*** Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
*** Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**
**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**
**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**
**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**
**Əlaqə telefonu: (055) 206-14-61**

**Təcili! Mehdiabadın gözəl mənzərəli və hündür yerində 3.5 sot torpaq sahəsi satılır.**
**Bütün sənədləri qaydasındadır. 1 sot qiyməti 7500 və 3.5 sot cəmi 26250 AZN.**
**(055) 740-25-64 ANAR**

**Binəqədi-Xırdalan şosesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**
**Tel: (050) 614-40-24**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə iynə vura bilən tibb bacısı tələb olunur.**
**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**
**(050) 312-72-92 (13:00-dan sonra 17:00-dək)**

**Dübəndidə Baglar massivində 10 sot torpaq sahəsi. Dəniz sahilindədir ,bütün sənədləri qaydasındadar.**
**Torpaq sahibi özü satır. 055-215-00-57**

YENİ MÜSAVAT
N 115 (6143) 28 may 2015

# Gədəbəydə öldürüldüyü iddia edilən hərbçinin anası "Yeni Müsavat"a danışdı

## Ərkinaz Məmmədova: "Süpürgəçilik etməklə oğul böyütdüm, bu da sonu..."

**Aprelin 21-də 171 saylı hərbi hissənin Gədəbəyin Qartal II (Alagöllər) deyilən bölüyündə müddətdən artıq xidmət keçən (MAXE) hərbi qulluqçu, 25 yaşlı Miriyev Səməd Əli oğlu müəmmalı şəkildə dünyasını dəyişib. Yaxınları onun MAXE yoldaşları tərəfindən qətlə yetirildiyini iddia edirlər.**

Redaksiyamıza müraciət edən mərhumun anası, Şəmkirin Posanlı kəndi, Gəray Əsədov küçəsi ev 38-də yaşayan Məmmədova Ərkinaz Əli qızı oğlunun ölümü ilə bağlı tükürpədici faktlar açıqladı. O, oğlunun dörd nəfər tərəfindən öldürüldüyünü, faktın ört-basdır edilməsi üçün aidiyyəti orqanların onlara təzyiqlər etdiyini, 171 saylı hərbi hissənin komandiri, general Rövşən Əkbərovun onu polis vasitəsilə qovdurduğunu deyir: "Oğlumu 4 nəfər MAXE öldürüb. Korpusun nümayəndələri şayiə buraxdılar ki, intihar edib. Oğlumun meyitini iki nəfər MAXE-nin əlinə verdilər. Meyitini belə yumağa imkan vermədilər. İcra başçısının təzyiqi ilə oğlum dəfn edildi. Dedilər ki, kömək edəcəyik, Səmədə şəhid statusu verəcəyik. Bunların heç birini etmədilər. Oğlum dəfn edildiyi günün səhəri Qazağın hərbi prokuroru Şahin Zamanovun qəbuluna getdim. Ekspertin cavabını almadan dedi ki, özü-özünü vurub. Dedim ki, nə üçün ekspert rəyi olmadan belə deyirsən? Oğlum ölməmişdən qabaq qardaşı Nicata mesaj yazıb. MAXE Hacıyev telefonu açaraq, mesajı silib. Yazıb ki, mən ölürəm. Qanımı Cavadov, Əbilov, Hacıyev və Qarayevdən alarsan. Əsgərlikdə soyadla çağırdıqlarına görə adlarını müəyyənləşdirə bilməmişik. Yalnız Camal Hacıyevi bilirəm. Ölümünə səbəb olanların bu şəxslər olduğunu oğlum mesajla bildirib. Mesajda oğlum yazıb ki, "məni sındırmaq üçün birləşdilər, bacarmayanda dava saldılar". Ondan sonra oğlumun son cümləsi "məni bağışlayın"dır. Mayın 5-də toyu olmalı idi. Qəsdən məzuniyyətə göndərmədilər. Nicat qardaşının mesajını 40 dəqiqədən sonra görüb. Korpusa çatanda deyiblər ki, qardaşın ölüb. Telefona zəng edəndə Hacıyev götürüb. Oğlum soruşub ki, niyə sən telefonu götürürsən? Telefonu söndürüb. Oğlumun yazdığı mesaj isə telefondan silinib. Şahin Zamanova sual verirəm ki, nəyə görə oğlum öləndən sonra mesaj onun telefonundan silinir? Deyir ki, özü silib. Dəhşətə gəlirəm ki, insan öləndən sonra mesaj silir? Bu qədər vicdansızlıq olmaz. Sonra Şahin Zamanov deyir ki, Hacıyevin öz telefonu yox imiş, sənin oğlunun telefonu ilə danışırmış, əli dəyib mesaj silinib. Sual verdim ki, bəs niyə bu şəxslərin adını mesajda yazıb? Savab vermədi".

**Şikayətçi qadın Rövşən Əkbərovun onu qovdurmasından danışdı:** "Korpusun komandiri Rövşən Əkbərov polis vasitəsilə məni qovdurur. Mehdiyev mənə deyir ki, nə şou çıxarırsan? Oğlumun ölümünü şou hesab edirlər. Əbilov deyir ki, dağdan yıxılıb, başı göyərib. Deyirəm ki, ölən adamın başı göyərir? Hətta dedilər ki, meyiti dağdan endirəndə, qucağımızdan yerə düşüb. Oğlumun bədənində göyərti izləri var idi. Hərbi komissar da görüb. Amma deməyə cəsarəti çatmadı. Deyirlər ki, bədənindəki göylər ölü ləkəsidir. Saat 5-də ölən adamın, gecə 2-də bədənində ölü ləkəsi qalar? Rövşən Əkbərov məni korpusdan qovdurdu. Şahin Zamanovun ikinci dəfə qəbulunda oldum. Deyir ki, oğlun söyüşə görə özünü öldürüb. Söyüşə görə insan özünü öldürərmi? Oğlum bankdan 1200 manat kredit götürüb, MAXE işinə girdi".

**Mərhumun anası oğlunun bu ilin fevralında başına gələn hadisədən sonra daim hədələndiyini də qeyd etdi. Ana iddia edir ki, övladının ölümünə bu amil səbəb olub:** "Bu ilin fevralında Səməd kursa getmək üçün dağdan düşəndə dumanda itmişdi. Bunun qabağına leytenant Elməddin Əzizov adlı birisi çıxmalı imiş. O da çıxmayıb. Nəticədə oğlum gecə saat 2-də tapılır. Bu vaxta qədər özünü qorumaq üçün bütün mülkü paltarlarını yandırır. Tapandan sonra sistem qoyub, özünə gətirirlər. Elməddin oğluma deyib ki, komandirə demə, qarşına çıxmadığımı. Səməd deyib ki, niyə mən ölməliydim? Elməddinə şiddətli töhmət verirlər. Elməddin oğluma deyib ki, gör sənin başına nə oyun açacam. Kursdan oğlum Saratovka kəndində yerləşən hərbi hissəyə qayıtdı. Mənə zəng etdi ki, burada Elşən Zeynalov adlı qərargah rəisi məni incidir. Bu hadisələri törədənin hamısı Elməddin Əzizov olub. Qərargah rəisinin də öyrədib. Oğlumu məzuniyyətə göndərməyən də bu olub. Qazağın hərbi prokuroru Şahin Zamanov, Şəmkirin icra başçısı Alimpaşa Məmmədov və Rövşən Əkbərov bu işi ört-basdır etmək istəyirlər. Yazdığım məktublara cavab verən yoxdur. Oğlumun gözünün altında və belində döyülmə izləri var idi. Bu qədər qanunsuzluq olmaz. Oğlumu öldürüb, üstümə göndərdilər. Noyabrın 27-də oğlum hərbi hissəyə gedib. Beş ayın MAXE-si idi. Oğlumun başını yedilər. Əsgərliyini il yarım Naxçıvanda çəkdi. Şəmkirin icra başçısı Alimpaşa Məmmədov mənə deyir ki, bu iş hərbidə olub, get, onlar sənə kömək etsin. Sonra gedəndə isə qəbula buraxmadılar. Oğlum dəfn olunanda icra başçısı mənim yanıma adam göndərdi ki, sakitləş, vicdanımla bu işə baxacam. Çörək qazananımı öldürdülər. Süpürgəçi işləyirəm, kasıb adamam. Öldürənlər puldan verib, oğlumun qanını batırırlar. Şahin Zamanov pul alıb susur. Bu bir ananın fəryadıdır. Dövlət məmurları oğlumun ölümündən istifadə edib, pul qazanmaq istəyirlər. Süpürgəçilik etməklə oğul böyütdüm, bu da sonu... Vətəni qoruyan snayperə, idmançıya qoyulan hörmət budur? Əlbəyaxa döyüş üzrə yarışmada oğlum diplom almışdı. Hərbi hissədə onun aldığı "Fəxri fərman"ı oğurlayıblar".

**Ə.Məmmədova oğluna şər atıldığını söylədi:** "Deyirlər ki, oğlun hərbinin qanunlarına hörmət etmirdi. Belə idisə, niyə həbs etmirdilər? Şəmkirdə qanunsuzluq baş alıb gedir. Küçədən keçən narkomanı belə, 3-4 min alıb MAXE götürüblər. Əsl snayperçini isə öldürdülər. Cənab prezidentə müraciət edirəm. Mənə kömək etsin. Bu qədər qanunsuzluğu görməmək olmaz. Korpus komandiri imicinə xələl gəlməsin deyə, oğlumun qanını batırmaq istəyir. Polis çağırıb məni qovdurur. Niyə Rövşən Əkbərov? Oğlumun qatilini istəyirəm, ona görə? Açıqca mənə deyirlər ki, günahı var idi. Sonra sözlərini danırlar. Günahı olanı öldürmək lazımdır? Oğlumun təhsil aldığı bütün yerlərdən müsbət xarakteristikası var. Ümumiyyətlə, 171 saylı hərbi hissədə ölənlərin hamısına eyni sözü deyirlər, özü-özünü öldürüb. Hərbidə ölənlərin hamısı özü-özünü vurur? Heç kəs maraqlanmır".

**Mövzuda adı keçən şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

❑ **Cavanşir ABBASLI**


AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİ
İLK HƏRBİ-İXTİSAS TƏHSİLİ HAQQINDA SERTİFİKAT
№ 5/2464
Bu sertifikatın sahibi Əsgər Miriyev Səməd Əli oğlu
« 09 » fevral 2015-ci il tarixdən « 14 » mart 2015-ci il tarixədək 777 nömrəli hərbi hissədə
"Snayper" ixtisası üzrə tam kursu keçmişdir.
193 №-li hərbi hissə komandirinin « 13 » mart 2015-ci il tarixli № -li əmri ilə
Əsgər Miriyev Səməd Əli oğluna
"Snayper" ilk hərbi ixtisası üzrə 3-cü dərəcə verilmişdir
Qeydiyyat nömrəsi №2464
Şəmkir şəhəri « 14 » mart 2015-ci il
Hərbi hissə komandiri general-leytenant Rövşən Əkbərov


















## Məşhur bazarın sökülməsi xəbəri təsdiqləndi

**Nərimanov rayonundakı "Keşlə bazarı" sökülə bilər. Layihəyə əsasən, Bakıda metronun "Koroğlu" metro stansiyası ilə Həsən Əliyev küçəsini birləşdirən yolun salınması ilə əlaqədar paytaxtın Nərimanov rayonunda yerləşən "Keşlə bazarı"nın sökülməsi gözlənilir. Bunu «Trend»ə Nəqliyyat Nazirliyi "Azəryolservis" ASC-nin mətbuat katibi Anar Nəcəfli deyib.**

Onun sözlərinə görə, ilk Avropa Oyunları ilə əlaqədar həmin yolun Milli Olimpiya Stadionu ilə Atletlər kəndini birləşdirən hissəsi artıq inşa edilib: "Lakin yolun davamının çəkilməsi işləri hələ qalıb. Layihəyə görə Həsən Əliyev küçəsinin davamının keçəcəyi ərazilərdə bazardan başqa yaşayış və qeyri-yaşayış obyektləri də yerləşir. Onların da sökülməsi istisna edilmir. Lakin layihənin icrası hələ qalıb. Yeni işlərin nə vaxt başlanacağı və nə vaxt tamamlanacağı bəlli deyil. Çünki daxili investisiya hesabına maliyyələşən layihələrə yenidən baxılması nəzərdə tutulur. Yalniz bundan sonra məsələ ilə bağlı konkret fikir söyləmək olar. Ola bilər ki, heç bir söküntü işi aparılmasın".

Məsələ ilə bağlı Nərimanov Rayon İcra Hakimiyyətindən «Trend»ə bildiriblər ki, "Keşlə bazarı"nın sökülməsi artıq plana salınıb və yolun bazarın ərazisindən keçəcək hissəsinin planı da hazırdır. Obyektin sökülecəyi ilə bağlı bazarda çalışanlar da məlumatlandırılıb.

YENİ MÜSAVAT

Son səhifə

N 115 (6143) 28-29 may 2015



## Rəqs etdiyi üçün həbs edildi

Misirdə bir çox şəxs tərəfindən izlənən videoda rəqs etdiyi görünən qadın “əxlaqsızlığa təşviq” etdiyi üçün nəzarətə götürülüb. Videoda görünür ki, Reda el-Fouly adlı qadın rəqs edir. “Associated Press”in xəbərinə görə, “Sib Eddi” adlı videoda Reda sevgilisi Veal Elsde ilə rəqs edir. Onlar Mena adlı müğənninin mahnısı ilə rəqs edirlər. Videonu izləyən polislər də qadının insanların əxlaqını poza bildiyini deyiblər. Qadını görən hər kəs videonun qorxunc olduğunu deyir.



## 30 yaşdan sonra qadınlar...

- 30 yaşdan sonra qadınlar yaşlarını söyləməyi sevmirlər;
- Gəzmək əvəzinə daha çox yatmaq istəyirlər;
- Bir şeylər öyrənmək üçün həvəsləri artır;
- Kökəlməyə daha meylli olurlar;
- Məktəb və universitet həyatları üçün daha çox darıxırlar;
- Rahatlıq bu yaş üçün daha önəmlidir. Dikdaban ayaqqabılardan vaz keçməyə başlayırlar;
- Saçlar ağarmağa, üz qırışmağa başlayır;
- 30 yaşdan sonra musiqi zövqləri belə dəyişir;
- Alış-verişə olan maraq zamanla azalır;
- Doğum günlərini qeyd etməyi sevməməyə başlayırlar.

# Obamanın qızına elçi çıxdı

**Keniyalı bir vəkil Amerika prezidenti Barak Obamanın qızı Mali Obamaya elçi düşüb. Obamanın 16 yaşlı qızı ilə evlənmək istədiyini deyən vəkil başlıq pulu da verəcəyini bildirib. O, Barak Mali Obama üçün 30 eşşək, 70 qoyun və 30 keçi verə biləcəyini deyib.**



Felix Kiprono adlı gənc vəkil “The Nairobian” qəzetinə verdiyi müsahibədə ən böyük xəyalının Mali ilə evlənmək olduğunu söyləyib. Kiprono Barak Obamanın iyul ayında Keniyaya ziyarəti zamanı birbaşa onunla görüşmək istədiyini də deyib.

Məlumat üçün bildirək ki, Obamanın atası keniyalıdır.

# Gözəl iş, yaxşı pul

**Bəzi ölkələrdə xərcliyi çıxarmaq istəyən gənclərin və asudə vaxtları dəyərləndirmək istəyən təqaüdçülərin məşğul olduqları it gəzdirmək işi ciddi pul gətirən məşğuliyyətə çevrilib. Bir çox it sahibinin öz heyvanlarına ayırmaq üçün vaxtı olmadığından, itlərini gəzdirmək üçün adamlar tuturlar. Bu vəziyyəti fürsətə çevirənlər isə özəl şirkətlər açaraq varlıların itlərini gəzdirərək pul qazanmağa başlayıblar.**

İngiltərədə it gəzdirənlər tibb bacılarından daha çox qazanırlar. Ölkədə “Direct Line” adlı heyvan sığorta şirkətinin apardığı araşdırmaya görə, gəzdiricilər ildə 26 min 500 sterlinq qazanır. Onlar hər saat üçün 11,50 sterlinq alırlar. Mançesterdə ev heyvanlarına xidmət üçün bir şirkət quran Nikola Davis və Riçard Tesdale isə gəzdirməyə çıxardıqları hər it üçün 12 dollar alır. Şirkət tətilə gedib itlərini ya da pişiklərini yanında apara bilməyənlər üçün xüsusi yer hazırlayıb. Heyvanları saxlamaq üçün hər gün 23 dollar ödənilir.





## 24 barmaqla doğulan körpə

**Bu körpə 24 barmaqla doğulub. 24 yaşlı ingilis Reyçl Hendrinin hamiləliyi normal keçib. Dəfələrlə həkim müayinəsində olan qadına heç bir problem olmadığı, körpəsinin sağlam doğulacağı deyilib. Lakobun doğulmasına ailə sevinsə də qısa zamandan sonra onlar bir-birinin ardınca ortaya çıxan problemlərdən narahat olmağa başlayıblar. Belə ki, uşağın 12 əl və 12 ayaq barmağı, görmə qabiliyyətində problemlər, eləcə də ürəyində dəlik olduğu aşkarlanıb. Hazırda həkimlər bu problemlərin səbəblərini, nədən hamiləlikdə üzə çıxmadığını öyrənirlər. Ana isə övladını çox sevdiyini, lakin onu bu şəkildə əsla məktəbə göndərməyəcəyini deyib. “Çünki uşaqlar çox qəddar ola bilər. Onun psixologiyasının pozulmasını istəmirəm”.**

Həkimlər uşağın ürəyindəki dəliyin zamanla qapanacağını, artıq barmaqların isə 12-ci ayından sonra kəsilə biləcəyini deyirlər.





**QOÇ** - Yaxşı olar ki, hər iki gündə bütün işlərinizi saat 16-ya qədər yekunlaşdırasınız. Çünki sonrakı ərəfə münaqişəli ola bilər. Bu arada yeni sövdələşmələrdə iştirakınız da gözlənilir.

**BUĞA** - Hədsiz dərəcədə uğurlu gündür. Bu proqnozun reallaşması üçün əlinizdən gələni etməlisiniz. Aktiv olun. Yeni simalarla görüşləriniz, uğurlu sövdələşmələriniz də gözlənilir.

**ƏKİZLƏR** - Ulduzlar bəxtinizə uğurlu zaman kəsiyi yazıb. İstər qarşılıqlı münasibətlər zəminində, istərsə də iş prinsipində nailiyyətləriniz saysız ola bilər. Bir şərtlə ki, əsəblərinizi qoruyasınız.

**XƏRÇƏNG** - Şəxsi taleyinizdə böyük dönüşə başlamaq üçün konkret addımlar atmağa başlayın. Xırda məişət problemlərinə, eyni zamanda dedi-qoduya əbəs yerə enerji itirməyin. Təklifləri qəbul edin.

**ŞİR** - Bu gün uğurlu işgüzar sövdələşmələriniz gözlənilir. Təşəbbüskarlığı əldən verməyin. Baxmayaraq ki, ümumi işlər passivdir, nəzərdə tutduğunuz işləri başa çatdıra bilərsiniz.

**QIZ** - Yalnız qonaqlıq və səfərlər üçün düşərli ərəfədir. Maliyyə və fəaliyyət sahəsində isə gərginliklə üzləşə bilərsiniz. Bu arada vaxt tapıb müqəddəs ziyarətgahlara da baş çəkin.

**TƏRƏZİ** - Şəxsi perspektivlərinizi reallaşdırmaq istiqamətində sizə mane olanların sayı durmadan artır. Odur ki, görəcəyiniz işlər barədə heç kimə informasiya verməyin. Bir az qapalı olun.

**ƏQRƏB** - Maliyyə problemlərinizin mövcudluğuna baxmayaraq, hər iki gündən razı qalacaqsınız. Çalışın ki, görəcəyiniz işləri sistem halına salasınız. Qətiyyən tələskənliyə yol verməyin!

**OXATAN** - Bayram gününü rahat tərzdə yola salsanız da, ertəsi günü müəyyən qədər gərginlik içərisində başa vuracaqsınız. Xüsusən də işlə bağlı xoşagəlməzliklər mümkündür. Hər halda, tədbirli olun.

**OĞLAQ** - Qərarlarınızdan dönməyin. Ən azı ona görə ki, Göy qübbəsi düz yolda olduğunuzdan xəbər verir. İkitərəfli danışıqlarda iştirak etməyiniz gələcək karyeranızda böyük rol oynayacaq.

**SUTÖKƏN** - Əri başdan anlayın ki, hər iki təqvimdə işləriniz hədsiz dərəcədə çox olacaq. Xüsusən də axşam saatlarınadək bərk yorulacaqsınız. Bu səbəbdən də sonrakı ərəfəni istirahətə həsr edin.

**BALIQLAR** - Hər şey çıxardığınız qərarlardan asılı olacaq. Tərəddüd etdiyiniz məsələlərdə etibar etdiyiniz şəxslərin məsləhətlərindən yararlanın. Qonaqlıq və əyləncələr üçün münasib vaxt deyil.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 18 min dollara saç

**Dünya şöhrətli bəstəkarlar Motsart və Bethovenin saç telləri satışa çıxarılıb. Belə ki, məşhur hərrac evi “Sotheby’s” bəstəkarlara aid bəzi əşyaları hərraca çıxarmağa hazırlaşır. Bu siyahıda Motsartın saçları da var. İçərisində bir tutam saç olan medalyon üçün ilkin qiymət 15 min dollar müəyyən edilib. Bethovenin saçı və cənazə dəvətnaməsi üçün isə 3 min dollar qiymət biçilib.**



Məlumata görə, Motsartın oğlunun sevgililərindən birinin saxladığı saç teli bir neçə il öncə də hərraca çıxarılmışdı. Hərrac evi saçı 2002-ci ildə 38 min dollara satmışdı. Budəfəki saç teli isə onun həyat yoldaşı Kontanze tərəfindən Almaniyanın xor rəhbərlərindən birinə xatirə olaraq verilmişdi.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300